# Moskva ev sahibliyi edib

Azərbaycan və Ermənistandan olan ekspertlərin görüşü keçirilib



**Rusiyanın paytaxtı Moskva şəhərinə Rusiya Beynəlxalq Əlaqələr Şurası və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun təşkilatçılığı ilə Ermənistan və Azərbaycandan olan politoloq-ekspertlərin görüşü keçirilib.**

Görüşü Azərbaycan tərəfdən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Ermənistan tərəfdən ”Orbeli” Təhlil Mərkəzi əlaqələndirib.

Görüşdə Ermənistanla Azərbaycan arasında sülh sazişi, delimitasiya, nəqliyyat dəhlizləri və humanitar məsələlər müzakirə olunub.

# Bu ilin 6 ayında 473 kriminal qrup zərərsizləşdirilib



**Azərbaycanda bu ilin 6 ayı ərzində 473 kriminal qrup zərərsizləşdirilib.**

Bunu kollegiya iclasında Daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov deyib.

O bildirib ki, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 125 nəfər cinayət məsuliyyətinə cəlb edilib: ”Ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 132 kiloqram çox - 1 ton 975 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya olunan 105 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edilib”.


№ 123 (5645), 2022-ci il

Qiymətı 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 16 iyul 2022-ci il (şənbə)




# Koronavirusun yeni variantı qorxulu deyil

İnfeksionist Mərdan Əliyev: “Əsas virusun hər hansı törəməsi, variantı onun özündən heç vaxt güclü olmur”

**“Payıza doğru yoluxma sayında artım olacağı proqnozlaşdırılmışdı. Proseslər gözlənildiyi kimi cərəyan edir. Buna hazırlıqlı olmalıyıq”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında həkim-infeksionist Mərdan Əliyev deyib. COVİD-19-un yeni - BA5 variantı barədə danışan mütəxəssis bildirib ki, bu, əslində ”Omicron” ştammının alt variantıdır:

- BA5 koronavirusun ”Omicron” ştammının qeydə alınmış 2 yeni alt variantından biridir. Viruslarda belə halların baş verməsi tamamilə mümkündür və gözləniləndir.

(səh.3)



# "Sülh danışıqlarının başlanması üçün əsaslar var"

Prezident İlham Əliyev: “Bizim təklif etdiyimiz beş baza prinsipini Türkiyə, Rusiya, İran da dəstəkləyir”

**“Yaxın günlərdə Aİ ilə Azərbaycan arasında önəmli sənəd imzalanacaq”. Bu fikirləri Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışında deyib. Ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlıq əlaqələrindən bəhs edən dövlət başçısı deyib ki, Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparılıb:**

"Bildiyiniz kimi, biz yeni saziş üzərində işləyirik. Sazişin böyük hissəsi razılaşdırılıb və razılaşdırılmamış məsələlər də müzakirə olunur. Ümid edirəm ki, yaxın gələcəkdə bütün məsələlər razılaşdırılacaq”.

(səh.2)

# Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə rəis təyin edildi

Eyni zamanda İlqar Abbasova general-mayor ali hərbi rütbəsi verildi



**Prezident İlham Əliyev İ.R.Abbasovun Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilməsi haqqında Sərəncam verib.**

Sərəncamla İlqar Rza oğlu Abbasov Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilib.

Prezident İlham Əliyev həmçinin İ.R.Abbasova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında da Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi İlqar Rza oğlu Abbasova general-mayor ali hərbi rütbəsi verilib.

# Bu gün XİN başçıları ilk dəfə üz-üzə görüşəcək

Ceyhun Bayramovla Ararat Mirzoyan Tbilisidə danışıqlar aparacaq



**Bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşəcəklər.**

Bunu Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışında deyib.

**Dövlət başçısı bildirib:**

"Ermənistanın bizim beynəlxalq hüquq norma və prinsipləri əsasında formalaşan təkliflərimizi qəbul etməsi müsbət hal olsada, hələ ki, konkret addımlar yoxdur. Sabah (bu gün) Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşəcəklər. Bu, nazirlər arasında ilk görüş olacaq və biz ümid edirik ki, görüşün nəticələri olacaq. Çünki mənim Ermənistanın baş naziri ilə bir neçə görüşüm olub, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü olub. Xarici işlər nazirləri arasında isə ikitərəfli görüş olmayıb, bu, birinci görüşdür. Ancaq artıq müzakirə olunan məsələlər masa üzərindədir.

(səh.2)

# "Şərq" yenə öncül oldu

Qəzetin 74 cildlik salnaməsi AMEA-nın elmi kitabxanasında qorunacaq





**Milli Mətbuatımızın yaranmasının 147-ci ildönümü ərəfəsində 26 yaşlı “Şərq” qəzeti daha bir ilkə imza atıb.**

1996-cı il noyabr ayının 1-dən nəşr olunmağa başlayan qəzet təsis olunduğu dövrdən bugünədək çap edilmiş nüsxələrini xüsusi cildlənmiş formada Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasına təhvil verib. Bununla bağlı dünən AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tədbir keçirilib.

(səh.3)



# "Mühasib işi 5 ildən sonra lazım olmaya bilər"

Məleykə Abbaszadə: "Bir ixtisası ömürlük seçmək artıq mümkün deyil"

**“Mühasib işi 5 ildən sonra lazım olmaya bilər”.**

Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ”Yüksəliş” müsabiqəsinin final mərhələsində ”Müasir çağırışlar və insan kapitalının formalaşması” mövzusunda çıxışı zamanı deyib.

**O qeyd edib ki, bir ixtisası ömürlük seçmək artıq mümkün deyil:**

”Bu gün mühasibatlıq sahəsində icra olunan proqramlar onu əvəz edir. Bundan sonra hər hansı alətlərlə işləməyi bacaran maliyyəçilər lazım olacaq. İxtisas seçimi deyil, fəaliyyət istiqaməti əsas amildir”.

# Daha 155 nəfər COVID-19-a yoluxub

1 nəfər vəfat edib, 43 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 155 yeni yoluxma faktı qeydə alınıb, 43 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 794 247 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 874 nəfər müalicə olunaraq sağalıb, 9 723 nəfər vəfat edib, aktiv xəstə sayı 650 nəfərdir.

# Xəzərdə 2 nəfər batıb, axtarış aparılır



**Fövqəladə Hallar Nazirliyinin (FHN) ”112” qaynar telefon xəttinə Sumqayıt şəhərində, dənizdə (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 600 m aralı, nəzarətsiz ərazi) 1 nəfərin batması barədə məlumat daxil olub.**

FHN-dən bildirilib ki, hadisə yerinə FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu cəlb olunub.

Həmçinin, FHN-in ”112” qaynar telefon xəttinə Şabran rayonunun Hacıqaraqaşlı kəndində, dənizdə 1 nəfərin batması barədə məlumat daxil olub. Hadisə yerinə FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu cəlb olunub.



# "Onu Allaha tapşırıram"

Şahbaz Quliyev Əli Həsənova qarğış etdi

(səh.2)

# "Ukrayna ciddi ərazilərini itirib"

“Öldürülən əsgərin, dağılan şəhərlərin Qərbə dəxli yoxdur”

(səh.5)





# "Sülh danışıqlarının başlanması üçün əsaslar var"

## Prezident İlham Əliyev: "Bizim təklif etdiyimiz beş baza prinsipini Türkiyə, Rusiya, İran da dəstəkləyir"

**"Yaxın günlərdə Aİ ilə Azərbaycan arasında önəmli sənəd imzalanacaq". Bu fikirləri Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışında deyib. Ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlıq əlaqələrindən bəhs edən dövlət başçısı deyib ki, Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparılıb:**

"Bildiyiniz kimi, biz yeni saziş üzərində işləyirik. Sazişin böyük hissəsi razılaşdırılıb və razılaşdırılmamış məsələlər də müzakirə olunur. Ümid edirəm ki, yaxın gələcəkdə bütün məsələlər razılaşdırılacaq". Avropa İttifaqı Şurasının Prezidenti ilə bir neçə dəfə görüşdüyünü və telefon danışığını xatırladan Prezident İlham Əliyev bildirib ki, əsas mövzu Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasıdır: "Ancaq eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır. Yaxın günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd - enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanacaq və bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır".

**"Ermənistan məcburən üzərinə götürdüyü öhdəliklərini hələ də yerinə yetirmir"**

**Dövlət başçısı vurğulayıb ki, Azərbaycan-Ermənistan əlaqələrinin normallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, hələlik real nəticələr yoxdur:** "Baxmayaraq ki, Vətən müharibəsindən 1 il 8 ay ötüb, ancaq əfsuslar olsun ki, Ermənistan məcburən üzərinə götürdüyü öhdəliklərini hələ də yerinə yetirmir". Dövlət başçısı bu istiqamətdə müsbət məqamların da olduğunu vurğulayaraq, bu baxımdan delimitasiya üzrə işçi qrupların birinci görüşünün keçirildiyini qeyd edib: "Biz bunu müsbət addım kimi qiymətləndiririk. Bu da ölkəmizin təşəbbüsü ilə baş vermiş hadisədir. Çünki məhz Azərbaycan sərhədlərin delimitasiyası ilə bağlı addımların tezliklə atılmasına çalışırdı. Ermənistan tərəfi buna o qədər də meyilli deyildi. Ancaq birinci görüş keçirildi. Əlbəttə, bu görüş daha çox tanışlıq xarakteri daşıyırdı. Gələn ay ikinci görüşün keçirilməsi nəzərdə tutulur. Hesab edirəm ki, ikinci görüş artıq praktiki məsələlərin müzakirəsinə həsr olunacaq. Əlbəttə, bu formatda olan əməkdaşlıqdan biz hələ ki, tez nəticə gözləmirik, çünki delimitasiya uzun bir prosesdir. Amma hər halda bu proses başlayıb, biz bunu uğurlu inkişaf kimi qiymətləndirə bilərik".

**"Bu beş prinsipi formalaşdıran bizik"**

Digər müsbət hal kimi Azərbaycanın təşəbbüsü ilə sülh müqaviləsinin əsasını təşkil edəcək beş əsas baza prinsipinin Ermənistan tərəfindən qəbul edildiyini vurğulayan dövlət başçısı qeyd edib ki, Ermənistan rəhbərliyi rəsmən bu beş prinsipi qəbul edib: "Bu beş prinsip nədən ibarətdir, bunu Azərbaycan ictimaiyyəti yaxşı bilir, təkrarlamaq istəmirəm. Ancaq təmasda olduğum bütün tərəf müqabilləri ilə müzakirələr zamanı Azərbaycanın bu təşəbbüsü təqdir olundu. Münaqişənin məhz bu prinsiplər əsasında həll olunması demək olar ki, təsdiqləndi. Ermənistan bunu qəbul etdi və bunu rəsmən etiraf etdi. Biz bu məsələni bir neçə qonşu dövlətlə müzakirə etmişik - Türkiyə ilə, Rusiya ilə, İranla müzakirə etmişik və bu mövqe dəstəklənir. Avropa İttifaqı, Amerika Birləşmiş Ştatları - biz bu tərəfdaşlarla da bu məsələni müzakirə etmişik və faktiki olaraq indi sülh danışıqlarının başlanması üçün əsas yaradılıb. Yenə də Azərbaycan təşəbbüs göstərib, yenə də bu beş prinsipi formalaşdıran bizik və əgər biz bu təşəbbüsü öz üzərimizə götürməsəydik, bu günə qədər bu istiqamətdə də heç bir inkişaf olmazdı".

**"Qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub"**

**Prezident bildirib ki, qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub və bu il bu istiqamətdə addımlar atılıb:** "Mənim Rusiya, İran, Gürcüstan prezidentləri ilə görüşlərim bir daha bunu göstərir. Amerika-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində önəmli addımlar atılıb, yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil edilib. Amerika Birləşmiş Ştatlarının Prezidenti mənə iki dəfə məktub göndərmişdi - həm Müstəqillik Günü ilə bağlı, həm Bakı Enerji Həftəsinin açılışı ilə bağlı. Mənim də cavab məktublarımda və mənə göndərilən məktublarda da əlaqələrimizin önəmi xüsusilə qeyd olunmuşdur. Bu əlaqələrin həm böyük tarixi və gözəl gələcəyi var. Yəni bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda, əsas beynəlxalq



### "Erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir"

təşkilatlarla, baxın, cəmi bu altı ay ərzində nə qədər böyük işlər görülüb". Prezident deyib ki, əgər ümumiyyətlə, son illərin tarixçəsinə nəzər salsaq, Azərbaycanın hər istiqamət üzrə irəlilədiyini görərik: "Bizim mövqeyimiz hər zaman müstəqil mövqe olub, biz hər zaman öz mövqeyimizi açıq nümayiş etdirmişik, o cümlədən buna görə dünyada böyük hörmət qazanmışıq. Həmişə sözümüzdə dururuq, həmişə verilən sözə sadiqik".

**"Ermənistanın üzərinə götürdüyü öhdəliklər orada açıq-aydın göstərilir"**

**Prezident deyib ki, müharibədən 1 il 8 ay ötməsinə baxmayaraq, başqa hər hansı müsbət məqam olmayıb:** "Ancaq əfsuslar olsun ki, mənfi məqamlar daha çoxdur. Onlardan biri Ermənistanın 10 noyabr 2020-ci ildə imzalanmış Bəyannamədə təsbit edilən məsələlərdən boyun qaçırmasıdır. 10 noyabr Bəyannaməsi faktiki olaraq Ermənistanın kapitulyasiya aktıdır və müharibədə məğlub edilmiş tərəf kimi Ermənistan öz üzərinə öhdəliklər götürüb. Bu öhdəliklər orada açıq-aydın göstərilir. Onlardan biri erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasıdır. Bu günə qədər bu məsələ öz həllini tapmayıb. Biz dəfələrlə məsələ qaldırmışdıq, ancaq Ermənistan bunu uzadır. Eyni zamanda, biz Rusiyanın hərbi rəhbərliyi qarşısında bu məsələni qaldırmışdıq və bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksəkvəzifəli şəxsi Azərbaycanda səfərdə olarkən bizim Müdafiə Nazirliyinə söz vermişdi ki, iyun ayına qədər erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq. Ancaq bu gün artıq iyulun ortasıdır, bu məsələ öz həllini tapmayıb. Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Rusiya sülhməramlıları - Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb - necə deyərlər, onları buna məcbur etmir. Əlbəttə ki, bu, dözülməz vəziyyətdir. Çünki erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi bilək. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir. Ancaq bu, 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması deməkdir".

**"Müharibə əlillərini fəal işə cəlb etmək üçün böyük işlər görülür"**

**Ölkə rəhbəri bildirib ki, müharibədən sonra bir çox şəhid ailələrinə və müharibə əlillərinə dövlət tərəfindən mənzillər verilib:** "Hesab edirəm ki, bu il Bakı şəhərində bu məsələ artıq tam həll olunacaq. Keçən il 3 min mənzil və fərdi ev verilmişdir, bu il 1500 mənzil və ev verilir. Bütövlükdə, Birinci və İkinci Qarabağ müharibələrinin şəhid ailələrinə və müharibə əlillərinə 12 min 500 mənzil verilib. Ermənistanda nə qədər verilib? Sıfır! Bir koma da verilməyib, bir daxma da verilməyib. Yəni əlbəttə, biz Ermənistanla özümüzü heç cür müqayisə etmək istəmirik. Amma bu, reallıqdır. İndi dünyada o qədər müharibələr olub - bizim bölgəmizdə, bizim coğrafiyaya yaxın ola yerlərdə, başqa yerlərdə. Hansı ölkə bunu edir? Mənə desinlər, mən eşitməmişəm. Ona görə etmirik ki, bununla öyünək, ona görə edirik ki, bunu mənəvi borc bilirik, edirik və edəcəyik. Bütün şəhid ailələri, hansılar ki, hələ növbədədir, yaxın gələcəkdə evlərlə təmin ediləcək. Reabilitasiya mərkəzləri yaradılmışdır və ən müasir texnologiyalarla təchiz edilmişdir. Minlərlə xidmət göstərilir, müharibə əlilləri üçün, veteranlar üçün, şəhid ailələri üçün məşğulluq marafonları keçirilir. Ümumiyyətlə, bu kateqoriyadan olan insanları fəal işə cəlb etmək üçün böyük işlər görülür. Bu, bəlkə də unudulur, bəlkə də bunu daha çox göstərmək lazımdır və qiymətləndirmək lazımdır, özü də bizim qarşımızda bu boyda işlər ola-ola".

**"Müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir"**

**Ölkə rəhbəri qeyd edib ki, hərbçilərin sosial müdafiəsi məsələləri Azərbaycanda yüksək səviyyədə təmin edilir:** "Hərbçilərin həm xidmət şəraiti, həm mənzil şəraiti haqqında bir çox məlumatlar var. Azərbaycanda bu sahədə görülən işlər deyə bilərəm ki, dünyada nadir hallarda təkrarlanır. Bizim bütün hərbi şəhərciklərimiz əsaslı şəkildə təmir edilir, onun haradasa 90 faizi yenidən qurulub. O cümlədən azad edilmiş torpaqlarda nə qədər böyük işlər görülüb - hərbi şəhərciklər, bazalar, hərbi təyinatlı yollar, infrastruktur - biz bunu o ağır iqlim şəraitində edirik. Əlbəttə ki, müharibədə qəhrəmanlıq göstərmiş hərbçilərin sosial problemləri daim diqqət mərkəzindədir və müvafiq göstərişlər verilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu müddət ərzində, müharibədən sonrakı dövr ərzində böyük işlər görüb, bunu hamı bilməlidir. Müharibədə əlil olmuş demək olar ki, bütün hərbçilər artıq ən müasir protezlərlə təmin olundular. Dördüncü nəsil protezlər - o protezlər ki, insan rahat yaşaya bilər, gəzə bilər, hətta futbol oynaya bilər, qaça bilər. Biz bunu edirik. Bu, çox bahalı texnikadır və o texnologiya elədir ki, vaxtaşırı dəyişdirilməlidir. Biz bunu edirik və edəcəyik. Çünki öz sağlamlığını itirmiş hərbçilər dövlət tərəfindən daim qayğı ilə əhatə olunmalıdır. Dövlət bunu edir və yerlərdə məmurlar da bunu heç vaxt unutmamalıdır".

**"Bizim quru sərhədlərimiz bağlıdır və bağlı olmalıdır"**

**Ölkə rəhbəri vurğulayıb ki, Ümumdünya Səhiyyə Təşkilatı məlumat yayıb ki, indi bəzi ölkələrdə yenə maska rejiminə keçmək lazımdır:** "Biz, əlbəttə ki, bu tendensiyaları izləyirik və biz pandemiyanın ən ağır dönəmində də qapanmaya getmişdik, sonra vəziyyət yaxşılaşanda açılırdıq. Bizim quru sərhədlərimiz bağlıdır və bağlı olmalıdır. Nə üçün? İnsanlar xəstələnməsin. Çünki ən çox bu xəstəliyin yayılma istiqaməti quru sərhədləridir. Ona görə biz sərhədlərimizi bağlı saxlayırıq və düz də edirik. Nə qədər lazımdırsa, o qədər də sərhədləri bağlı saxlayacağıq - quru sərhədlərindən söhbət gedir. Bunu edirik ki, insanların sağlamlığını qoruyaq, insanları itirməyək. Bizim məqsədimiz budur. Biz COVID dövründə milyardlarla vəsait ayırmışıq, indi mən bunu təkrarlamaq istəmirəm".

**"Bəzən kimsə fikirləşir ki, neftin qiyməti artıb, Azərbaycan daha çox zənginləşib"**

**Prezident vurğulayıb ki, büdcə təkcə neftin qiymətinin artırılması nəticəsində böyüməyib. Bu, dürüstləşmə, eyni zamanda, aparılan islahatlar nəticəsində mümkün olub:** "Çünki bəli, dünyada neftin qiyməti qalxıb, amma eyni zamanda, dünyanın kapital bazarları çöküb, bunu da hər kəs bilməlidir. Bəzən kimsə fikirləşir ki, neftin qiyməti artıb, Azərbaycan daha çox zənginləşib. Bəli, neftin qiyməti artıb, amma bizim ehtiyatlarımız əsasən istiqrazlardadır, səhmlərdədir. Açsınlar baxsınlar, dünyanın kapital bazarları necə çöküb. Əlbəttə, bu, müvəqqətidir. Bütün suveren fondlar bu vəziyyətlə üzləşiblər. Mən indi başqa suveren fondların itkilərini demək istəmirəm, amma burada 10 milyardlarla itkilərdən söhbət gedir - böyük suveren fondların, bu kapital bazarının çökməsi nəticəsində. Bu, bizə də mənfi təsir göstərir. Ancaq biz öz işimizlə, islahatlarla elə işləyirik ki, heç kim bunu hiss etmir. Ona görə iqtisadi sahədə aparılan islahatlar imkan verdi ki, 6 ayda vergilər sahəsində proqnozdan əlavə 2 milyard manat pul yığıldı. Nə üçün? Çünki şəffaflıq var, dürüstlük var, hesabatlılıq var. Biznes dairələrinə bir neçə il bundan əvvəl möhlət verilmişdi ki, onlar da normal reyslərə keçsinlər, daha o kölgə iqtisadiyyatından əl çəksinlər. Onlara himayədarlıq edənlərə də, necə deyərlər, dərs verildi. Ona görə 6 ayda 2 milyard manat əlavə ancaq vergi orqanları yığıbdır və biz bundan istifadə edirik. İlin sonuna hələ təxminən 6 ay var. Budur, bizim maliyyə-iqtisadi imkanlarımızın əsas faktoru".

**İsmayıl**

# "Azərbaycan bütün məsələlərdə Türkiyənin yanında olacaq"

## Prezident İlham Əliyev Rəcəb Tayyib Ərdoğana məktub göndərib



**Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərib.**

*Məktubda deyilir:*

"Hörmətli cənab Prezident,

**Əziz Qardaşım,**

Bu il Türkiyədə 15 İyul dövlət çevrilişi cəhdinin altıncı ildönümü qeyd olunur. Biz dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda edən şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Altı il əvvəl qardaş Türkiyə xalqı Vətəninin müstəqilliyini, suverenliyini müdafiə edərək, dövlətçiliyə və demokratiyaya sahib çıxaraq əsl şücaət və qəhrəmanlıq nümunəsi göstərmiş, dünyaya bir daha qüdrətini və əzəmətini sübut etmişdi. 15 İyul hadisələri ilə əlaqədar təsis edilmiş "Demokratiya və Milli Birlik Günü" qəhrəman xalqınızın Vətəninə və dövlətinə bağlılığının, dövlətçiliyə və demokratik ənənələrinə sadiqliyinin təcəssümüdür.

Qardaş xalqınızın əsl lideri kimi Sizin şəxsinizə olan sonsuz inam və etimadı, Sizin ətrafınızda sıx birləşməsi Türkiyə dövlətinə qarşı yönəlmiş xəyanətin qarşısını almaqda, ölkənizin bu çətin sınaqdan başıuca çıxmasında həlledici rol oynadı. Milli birliyin və həmrəyliyin, sarsılmaz iradənin və güclü liderliyin təntənəsi olan bu möhtəşəm zəfər Türkiyə dövlətçiliyinin tarixinə əbədi olaraq həkk olunmuşdur.

Azərbaycan xalqı və dövləti ilk dəqiqələrdən qardaş Türkiyənin yanında olaraq və həmrəylik göstərərək bu xəyanətkar dövlət çevrilişi cəhdini ən qəti şəkildə qınamışdır. "Bir millət iki dövlət" prinsipi əsasında həm sevincli, həm də kədərli günlərdə bir-birinə dayaq olan xalqlarımız məhz çətin anlarda qarşılıqlı dəstək göstərərək qardaşlığını sübut edirlər. Biz bundan sonra da bütün məsələlərdə Türkiyənin yanında olacağıq.

Qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Əminəm ki, bir ay əvvəl imzalanmasının birinci ildönümünü qeyd etdiyimiz Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz müttəfiqlik hədəflərinə doğru bundan sonra da inamla addımlamağa davam edəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# Bu gün XİN başçıları ilk dəfə üz-üzə görüşəcək

## Ceyhun Bayramovla Ararat Mirzoyan Tbilisidə danışıqlar aparacaq





**Bu gün Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşəcəklər.**

Bunu Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədəki çıxışında deyib.

**Dövlət başçısı bildirib:**

"Ermənistanın bizim beynəlxalq hüquq norma və prinsipləri əsasında formalaşan təkliflərimizi qəbul etməsi müsbət hal olsa da, hələ ki, konkret addımlar yoxdur. Sabah (bu gün) Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşəcəklər. Bu, nazirlər arasında ilk görüş olacaq və biz ümid edirik ki, görüşün nəticələri olacaq. Çünki mənim Ermənistanın baş naziri ilə bir neçə görüşüm olub, Azərbaycan və Ermənistan nümayəndələrinin görüşü olub. Xarici işlər nazirləri arasında isə ikitərəfli görüş olmayıb, bu, birinci görüşdür. Ancaq artıq müzakirə olunan məsələlər masa üzərindədir. Mən hesab edirəm, bu görüşün yaxşı nəticəsi o ola bilər ki, Ermənistan tərəfi öz işçi qrupunu formalaşdırsın".

***

Qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla Tbilisidə görüşəcək.

"Report" xəbər verir ki, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Qeyd olunur ki, nazirlər iyulun 16-da Gürcüstan paytaxtında görüşəcək.

*Bu, Ermənistan və Azərbaycanın xarici işlər nazirlərinin ilk ikitərəfli görüşüdür. Bundan əvvəl xarici işlər nazirləri Düşənbədə Rusiya xarici işlər naziri ilə üçtərəfli görüşlər çərçivəsində danışıqlar aparıblar.*

# "Onu Allaha tapşırıram"

## Şahbaz Quliyev Əli Həsənova qarğış etdi

**7 il erməni əsirliyində olan Şahbaz Quliyev bu ilin aprelin 1-də aksiya keçirməyə cəhd etmişdi.** O, əlil kimi pensiya və veteranlıq statusu ala bilmədiyini, Məşğulluq Xidmətindən isə ona aylıq 160 manat maaşla süpürgəçi işi təklif edildiyini bildirmişdi. Ş.Quliyev həmçinin çox çətin vəziyyətdə yaşadığını, evinin qazı və işığının kəsildiyini də dilə gətirmişdi.

Hadisənin nə yerdə qaldığını və Şahbaz Quliyevə hansı yardımlar olduğunu öyrənmək üçün özü ilə əlaqə saxladıq.

**Heç bir probleminin həll olunmadığını deyən Ş.Quliyev "Şərq"ə bildirib ki, əsəb xəstəliyi tapıb:** "Mənə yalnız bacım və qardaşım dəstək verir. Dərmanlarımın, işıq və qazımın pulunu onlar ödəyirlər. Qızımla problemlərim isə hələ də davam edir. Hərəmiz bir tərəfdə qalmışıq.

"Qaçqınkom"un keçmiş rəhbəri Əli Həsənov kimilər edir hər şeyi. Onu Allaha tapşırıram".

**Nihat Müzəffər**








# "Şərq" yenə öncül oldu

## Qəzetin 74 cildlik salnaməsi AMEA-nın elmi kitabxanasında qorunacaq





**Milli Mətbuatımızın yaranmasının 147-ci ildönümü ərəfəsində 26 yaşlı ”Şərq” qəzeti daha bir ilkə imza atıb. 1996-cı il noyabr ayının 1-dən nəşr olunmağa başlayan qəzet təsis olunduğu dövrdən bugünədək çap edilmiş nüsxələrini xüsusi cildlənmiş formada Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasına təhvil verib. Bunula bağlı dünən AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tədbir keçirilib.**

Tədbirdə ”Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı, Mərkəzi Elmi Kitabxananın baş direktoru, professor Məmməd Əliyev, AMEA-nın həqiqi üzvü, akademik Fikrət Əliyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, ”İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, tanınmış jurnalist Rafiq Həşimov və media nümayəndələri iştirak ediblər. Çıxışlardan öncə torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

**Kitabxananın baş direktoru, professor Məmməd Əliyev ilk növbədə gözəl təşəbbüsə və təqdirəlayiq addıma görə qəzetin baş redaktoru Akif Aşırlıya təşəkkürünü bildirib.** Professor vurğulayıb ki, ölkədə başqa kitabxanalar olsa da, ”Şərq” qəzeti öz külliyatını məhz Mərkəzi Elmi Kitabxanaya həvalə edib. Məmməd Əliyev cildlənmiş qəzetlərin Kitabxananın Mətbuat Fondunda saxlanılacağını deyib: ”Akif müəllim bizim kitabxanaya böyük bir sirr bağışladı. Buna görə həm öz adımdan, həm də kitabxana kollektivi adından Akif müəllimə minnətdarlığımı bildirirəm. Adətən, tələbələrə, magistrlərə, doktorantlara köhnəlmiş mövzularda elmi iş veririk. Halbuki, magistr və doktorluq dissertasiyaları mətbu orqanlarda çap olunmuş aktual mövzuları da əhatə edə bilər. AMEA-da 40-dan çox elmi müəssisə fəaliyyət göstərir. 74 cildlik qəzet nüsxələri elmi tədqiqat işləri üçün faydalı olacaq. Nəzərə alaq ki, bir neçə universitetdə də jurnalistika fakültələri var”.

**Mətbuat Şurasının sədri Əflatun Amaşov qeyd edib ki, hər bir xalqın siyasi həyatında onun milli mətbuatı mühüm rol oynayır:** ”Bu təşəbbüsü nəinki ”Şərq” qəzetinin, bütövlükdə Azərbaycan jurnalistikasının Vətən tarixinə müstəsna töhfəsi kimi dəyərləndirirəm. ”Şərq” yaxın tariximizin salnaməsidir. Təsəvvür edin ki, bu salnamə kitab şəklinə salınıb. Söhbət qəzetin indiyədək işıq üzü görmüş bütün nüsxələrinin yer aldığı kitabdan, daha doğrusu, 74 cilddən gedir. Kitabların hər birini ayrılıqda toplu kimi qiymətləndirmək daha çox yerinə düşər. Həmin toplular bu gün Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanasına təqdim edildi. Hesab edirəm ki, 22 iyul Milli Mətbuat Gününə rəng qatmaq baxımından bundan gözəl ideyanı ağla gətirmək sadəcə mümkün deyil. ”Şərq” qəzetinin başda Akif Aşırlı olmaqla bütün kollektivinə, indiyədək nəşrdə əməyi keçmiş hər kəsə dərin təşəkkürümü bildirirəm. ”Şərq” qəzetinin cildlənmiş saylarının kitabxanaya verilməsi Azərbaycan jurnalistikasının həyatında mühüm rol oynayacaq. Mətbuat dövrün inikasıdır, həmin günün tarixidir. Elmi Kitabxanaya da elmlə maraqlananlar gəlirlər. Onlar özləri üçün lazım olan məqalələri bu qəzetlərdən tapa bilərlər”. Ə.Amaşov bunun başlanğıc olduğunu deyib: ”Belə bir vacib təşəbbüsə digər mətbuat orqanlarımızı da qoşulmağa çağırıram. Yeri gəlmişkən, təşəbbüsə ilk qoşulan nəşrin adı məlumdur. Bu, ”İki sahil” qəzetidir. İnanıram ki, tezliklə onun saylarının yer aldığı toplunu da görəcəyik. Növbədə kimlər olacaq, bunu isə zaman göstərəcək”.

”**Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı vurğulayıb ki, cəmiyyəti formalaşdıran, xalqı millət edən mətbuatdır, mətbuat fədailəridir. Baş redaktor bildirib ki, bu yol ”Əkinçi”dən, Həsən bəy Zərdabidən başlayır:** ”Fikir, söz ustadlarımız milləti formalaşdırdı və son nəticədə Azərbaycan Xalq Cümhuriyyəti quruldu. Bu gün dövlətimiz müstəqilliyinin 30-cu ildönümünü şərəflə yaşayır. ”Şərq” qəzeti 1996-cı il noyabrın 1-dən nərşə başlayıb. İlk sayımızdan etibarən qəzetin nüsxələrini toplayaraq hər üç aydan bir cildləmişik. 74 cildlik qəzet nüsxələrini redaksiyada saxlamağı uyğun bilmədik. 184 jurnalistin yazıları, fərqli fikirlər və müstəqilliyimizin bərpasının 26 illik dövrü səlnamə şəklində qəzetimizdə əksini tapıb. Qəzetimizin xeyli nüsxəsi M.F.Axundov adına kitabxanada da var, amma bütün sayları ilə birlikdə, komplekt halda Mərkəzi Elmi Kitabxanaya təhvil verilib. Biz öz irsimizi bu kitabxanaya həvalə edirik. AMEA-nın böyük elmi potensialı var. Dövri mətbuat da elmi məqalələrdə, dissertasiya işində, doktorluq mövzularında istifadə olunur. ”Şərq” qəzeti ən etibarlı mənbə kimi müxtəlif kitablarda istifadə edilib. 74 cilddə əksini tapan məqalələr elmi işlərin əsas istinad mənbələri olacaq. Belə bir deyim var, deyirlər ”əlyazmalar yanmır, çünki əlyazmalar kağız üzərindədir”. Qəzet də kağız üzərində məlumat mənbələrini özündə ehtiva edən media strukturudur. Klassik irsimizin daşıyıcısıdır. Texnologiyalar nə qədər inkişaf etsə də, yenə kağıza, qələmə ehtiyacımız olacaq. Çap mətbuatı və onun gələcəyi haqqında pessimist düşünən insanlarımız bilməlidirlər ki, çap mətbuatı jurnalistikamızın təməl prinsipləri, alt yapısıdır. Bu alt yapının çökməsi çirkli informasiyaların, feyk xəbərlərin dövriyyəyə gətirildiyi bir zamanda ən peşəkar nümunələr klassik mediada yaşayır və gələcəyə ötürülür”.



**Millət vəkili Vüqar İsgəndərov alimlərdən və media nümayəndələrindən sonra söz söyləməyin çətin olduğunu deyib. Deputat bildirib ki, dövlətin yaranmasında, formalaşmasında dövrün ziyalıları, mediası müstəsna rol oynayır:** ”Jurnalistika, qəzetçilik çox vacibdir. Dövlətlərin formalaşmasında, tərəqqisində yazılı ədəbiyyatın, elmin, mətbuatın rolu böyükdür. Xalqı maarifləndirən, elmləndirən insanlar, mətbu orqanlar varsa və nə qədər çoxdursa, həmin xalq daha yaxşı inkişaf edir, gələcəyini daha yaxşı qurur”.

**AMEA-nın həqiqi üzvü, akademik Fikrət Əliyev** ümummilli lider Heydər Əliyevlə bağlı bir xatirəsini iştirakçılarla paylaşıb və mərhum prezidentin ölkə mətbuatına verdiyi dəyərə diqqət çəkib.

**”İki Sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan mətbuatı çox şərəfli və qürurlu yol keçib:** ”Akif müəllimlə 1990-cı illərdə ”7 gün” qəzetində birgə əməkdaşlıq etmişik. Daha sonra hərə öz qəzetini yaratdı. Akif müəllim 26 ildir ”Şərq” qəzetinin başındadır. ”Şərq” böyük bir məktəbdir. 74 cilddən ibarət nüsxələrin kitabxanaya verilməsi təqdirəlayiq addımdır. Hesab edirəm ki, qəzetlər sadəcə kitabxanalara deyil, jurnalistika tədrisi ilə məşğul olan universitetlərə də hədiyyə olunmalıdır. ”Şərq” yeni bir nümunənin, ənənənin təməlini qoydu. Bu, gələcəkdə peşəkar jurnalistlərin yetişməsində, tədqiqat işlərinin aparılmasında, elmi araşdırmalarda mühüm rol oynayacaq”.

**Tanınmış jurnalist Rafiq Həşimov ”Şərq” qəzeti redaksiyasının bu addımını tarixi addım kimi dəyərləndirib.** R.Həşimov mətbuatın indiki real vəziyyəti və ümummilli lider Heydər Əliyevin Azərbaycan jurnalistlərinə göstərdiyi qayğıdan da danışıb.

*Sonda şəhid jurnalist Məhərrəm İbrahimovun qardaşı Əsgər İbrahimov və şəhid operator Sirac Abışovun qardaşı Şirzad Abışov da çıxış edərək ölkə mətbuatı, çap mediası ilə bağlı fikirlərini bəyan ediblər.*

**İsmayıl Qocayev**




# Koronavirusun yeni variantı qorxulu deyil

## İnfeksionist Mərdan Əliyev: “Əsas virusun hər hansı törəməsi, variantı onun özündən heç vaxt güclü olmur”

**”Payıza doğru yoluxma sayında artım olacağı proqnozlaşdırılmışdı. Proseslər gözlənildiyi kimi cərəyan edir. Buna hazırlıqlı olmalıyıq”.**

Bu sözləri ”Şərq”ə açıqlamasında həkim-infeksionist Mərdan Əliyev deyib. COVİD-19-un yeni - BA5 variantı barədə danışan mütəxəssis bildirib ki, bu, əslində ”Omicron” ştammının alt variantıdır:

- BA5 koronavirusun ”Omicron” ştammının qeydə alınmış 2 yeni alt variantından biridir. Viruslarda belə halların baş verməsi tamamilə mümkündür və gözləniləndir. Alt variant nədir, belə izah edim, virusun genetik kodu dəyişməz qalır, yalnız genlərdə 1-2 dəyişiklik baş verir. BA5 də ”Omicron” variantında dəyişikliyə uğramış genlərdir. Yəni ”Omicron” ştammında 2 gen dəyişikliyi baş verib. Bu, çox da önəmli deyil. Əvvəllər də dediyimiz kimi, əsas virusun hər hansı törəməsi, variantı onun özündən heç vaxt güclü olmur. Xəstəlik əlamətlərində, xəstəliyin gedişatında bəzi fərqliliklər baş verir. Ona görə də yeni variant barədə ”çox təhlükəlidir” ifadəsinin işlədilməsi düzgün olmaz.

Qeyd edək ki, son zamanlar, xüsusən də iyul ayı başlanandan koronavirusa yoluxma sayında artım müşahidə edilir. Bu isə pandemiyanın geri dönəcəyi ehtimallarını artırır. ÜST rəhbərinin ”Koronavirus pandemiyasının bitməsi üçün uzun müddət gərəkdir. Virusun yeni dalğaları COVİD-19-un sonunun uzaqda olduğunu göstərir. Virus bizi sıxışdırarkən, biz onun qarşısını almalıyıq”, bəyanatı da pandemiyanın bitdiyinə ümid bəsləyənləri bir tərəfdən məyus etdi. Həqiqətən də son iki həftə ərzində yoluxma sayında nəzərəçarpacaq artım var. Türkiyəli həkim, yoluxucu xəstəliklər üzrə mütəxəssis professor Bülənt Ərtuğrul qeyd edib ki, yoluxma sayının artmasına səbəb COVİD-19-un üzə çıxmış yeni variant - BA5-in yoluxuculuq gücünün daha da yüksək olmasıdır. Bu variant əvvəlkilərə nisbətən daha da yoluxucu və təhlükəlidir. Professor yoluxma sayının artmasına yay fəslində insanların bir yerdən digərinə səyahət etməsinin, yerdəyişməsinin də səbəb olduğunu göstərtir. Həkim məsləhət görür ki, fiziki məsafəni qorumaq mümkün deyilsə, hətta açıq havada da tibbi maskalardan istifadə edilməlidir. Xüsusən də istirahət yerlərində, turistik məkanlarda fiziki məsafə saxlamaq mümkün görünmür. Ona görə də qoruyucu maskalardan mütləq istifadə edilməlidir. Həmçinin, sonuncu vurulan peyvəndin üzərindən 6 ay keçibsə, yenidən peyvənd vurdurmaq məsləhətdir.

**Həkim-infeksionist Mərdan Əliyev isə bu fikirdədir ki, yoluxma sayının artmasına səbəb immunitetin zəifləməsi və bunun nəticəsində xəstəliyə həssaslığın artmasıdır:**

- Qeyd etdiyim kimi, yoluxma sayının payıza doğru artacağı proqnozlaşdırılmışdı və proseslərin gedişi də bunu göstərir. Yeni variant qorxulu deyil. İmmunitet zəifliyi xəstəliyə həssaslığı artırır, nəticədə yoluxma sayında artım baş verir. Tövsiyəmiz budur ki, risk qrupuna daxil olanlar (yaşlılar, xroniki xəstəlikləri olanlar) yenidən peyvənd vurdursunlar. 3-cü dozanın üzərindən müəyyən müddət keçdikdə orqanizmin virusa dözümlülüyü azalır. Virusdan qorunmağın bir yolu tam izolyasiyadır, bu isə məlum məsələdir ki, çox çətindir, hətta mümkünsüz görünür. Virusdan qorunmağın optimal yolu kimi tibbi maskalardan istifadə və peyvənd vurdurmaq qalır. Bütün hallarda insanların qorunmasında fayda var.

**Məlahət Rzayeva**

# "Tərtər işi"ni yeni Azərbaycana daşıya bilmərik"

## İbrahim Rüstəmli: “Ədalətsizliyə yol vermiş hər kəs, xüsusilə yüksək vəzifədə çalışan səlahiyyətli adamlar cəzalanmalıdır”



**Tərtərdə hərbi hissədə baş vermiş hadisələrə görə 2017-ci ilin may ayında başladılan cinayət işi hələ də davam edir. Baş vermiş hadisənin bütün detalları ən incə xırdalıqlarına qədər araşdırılır. Hüquq müdafiəçiləri bildirir ki, 100-dən artıq hərbi qulluqçu (əsgər, çavuş, gizir və zabit heyəti) işgəncələrə məruz qalıb, 25 nəfərə uzunmüddətli azadlıqdan məhrumetmə cəzası verilib və 13 nəfər işgəncə nəticəsində vəfat edib.**

Qeyd edək ki, ”Tərtər işi” ilə bağlı ”Tərtərdə Hüquqi Özbaşınalıq Qurbanlarının Hüquqlarını Müdafiə Komitəsi” yaradılıb. İşgəncə hallarının əksəriyyətinin Tərtərdə baş verməsi səbəbindən mediada bu hadisələr və iddialara ümumi olaraq ”Tərtər işi” deyilir.

**Ehtiyatda olan polkovnik, hərbi ekspert İbrahim Rüstəmli ”Şərq”ə açıqlamasında ”Tərtər işi”nin Azərbaycanın yaralı yeri olduğunu bildirib:** ”Çox ciddi qanunsuzluğa yol verilib. Tutalım, biri digərini bıçaqlayır. Əlində bıçaq olan adam etiraf edir ki, onu vurmuşam. Ancaq hökm verilənə qədər həmin şəxs şübhəli kimi təqdim olunur. Qatil deyilmir.

Tərtər hadisələri özbaşınalıq, insafsızlıq əməlləridir. Qara yaranın sağalmasından ötrü dövlət başçısı ”Tərtər işi” ilə bağlı komissiya yaratdı. Deməli, ”Tərtər işi” Prezidentin nəzarətindədir. Prezidentin komissiya yaratması məsələyə aydınlıq gətirmək istəyilə əlaqəlidir.

Günahsız insanları döyə-döyə öldürüblər. Aidiyyəti qurumlara, önəmli dövlət adamlarına yalan informasiyalar ötürülüb. Prezidentin sərəncamı ilə yaradılan müvafiq komissiyaya böyük ümid bəsləyirik. Azərbaycan xalqı gözünü onun işinə dikib”.

*Hərbi ekspertin qənaətincə, ədalətsizliyə yol vermiş hər kəs, xüsusilə yüksək vəzifədə çalışan səlahiyyətli adamlar cəzalanmalıdır:* ”Söhbət qanunsuz cəzalandırılmış, öldürülmüş insanların və onların ailələrinin haqqından gedir. Ekskvatorla qazıb, vətən xaini adlandırıb, torpağa basdırmaq, üstündən traktorla keçmək... Öldürülən bir qisim insanlara bəraət verilib. Problemin şəffaf şəkildə həllini tapması Azərbaycanın günü-gündən qalxan nüfuzunda çox böyük rol oynayacaq. Ölkəmiz dünyada sayılıb seçilir. İqtisadi, siyasi, hərbi, mədəni və digər cəhətdən Azərbaycan yenidən qurulur. Yeni Azərbaycan yaradırıq. ”Tərtər işi” məsələsini yeni Azərbaycana daşıya bilmərik. Məsələnin obyektiv araşdırılmasına ehtiyac duyulur.

Komandir müavininə, müavin müavininə, o da öz tabeliyindəkilərə tapşırıq verir.

Zəncirvari şəkildə cinayət reallaşıb. Ədalətsiz qərar verən şəxslər cəzalanmalıdır. Vətən xainidirsə, niyə döyürsən, işgəncə verirsən, öldürürsən? Elədirsə, gətir, ondan bütün informasiyaları al. Güman edirəm ki, yaradılan komissiya bizi narahat edən detallara aydınlıq gətirəcək. ”Tərtər işi”ndə hamı günahsız deyil, doğrudan da vətən xainləri var idi. Amma onların sırasına başqalarını qatıb haqsız, qanunsuz istintaq əməlləri törətməyi sözlə ifadə etmək olmur”.

**Aygün Tahir**



# Bakı hazırdır

## Liderlərin birbaşa danışıqları prosesi sürətləndirə bilər

**Azərbaycan tərəfi dəfələrlə Ermənistanla münasibətləri normallaşdırmağa hazır olduğunu bildirib. Hətta yekun sülh müqaviləsinin imzalanması istiqamətində əməli addımlar da atıb. Eyni zamanda, rəsmi Bakı onu da bəyan edib ki, qeyd edilənlər üçün Azərbaycan və Ermənistan vasitəçilər olmadan birbaşa danışıqlar apara bilər.**

Lakin İrəvan bu məsələyə adekvat reaksiya verməyib. Hadisələrin axarı hazırda İrəvanda Bakının dediklərinin əslində zəruri olduğunun qəbul edilməyə başlandığına dair təəssüratlar yaradır. Bir neçə gün əvvəl Ermənistanın keçmiş səhiyyə naziri və hakim "Vətəndaş müqaviləsi" partiyasından olan deputat Arsen Torosyanın açıqlamaları da bu qənaətə gəlməyə əsas verir. O hesab edir ki, İrəvan vasitəçilərsiz Bakı və Ankara ilə münasibətləri yaxşılaşdırmalıdır: "Bizə bir millət, xalq və dövlət olaraq durmadan deyilir ki, heç vaxt qonşularımızla sülh şəraitində yaşaya bilməyəcəyik". Keçmiş nazir bildirir ki, köhnəlmiş stereotiplərdən qurtulmağın və anlamağın vaxtı çatıb və Ermənistan öz qonşuları ilə dinc həyat qurmaq üçün müstəqil addımlar ata bilər: "Amma biz türklərlə və azərbaycanlılarla qonşu kimi dinc yanaşı yaşamanın qeyri-mümkün olduğuna inanaraq tamamilə əks fikirlərlə yaşayırıq. Əgər biz erməni cəmiyyətinin kollektiv şüurunda bu stereotipi qıra bilsək, o zaman qonşularımızla danışıqlar masası arxasına oturub kompromis həll yolları tapa biləcəyik". Arsen Torosyan qeyd edir ki, əks halda Ermənistan həmişəlik çıxılmaz vəziyyətdə qalacaq, yeni fəlakətlərə məhkum olacaq. Torosyanın səsləndirdiyi fikirlər onu təsdiq edir ki, Ermənistan cəmiyyətində hökm sürən revanşist əhval-ruhiyyəyə baxmayaraq, Ermənistanın hakim elitasının bir sıra nümayəndələri müharibədən

> "Əngəl Rusiyadır. Moskva Bakı-İrəvan xəttindəki bütün prosesdə bu və ya digər formada iştirakçı olmaq imkanını əldən vermir"

sonrakı reallığı və sülh danışıqlarının zəruriliyini aydın dərk edirlər. Xatırladaq ki, ilk dəfə olaraq Ermənistan Baş naziri Nikol Paşinyanla Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı baş tutub. Liderlər iki ölkənin münasibətlərinin normallaşması yönündə atılacaq addımları müzakirə ediblər.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Azərbaycan və Ermənistan liderlərinin birbaşa təmas qurması imkanı mümkündür. Analitikin sözlərinə görə, əslində Brüsseldə sonuncu görüş zaman "ikitərəfli format" üzərində müəyyən razılıqların olması da bu imkanı artırdı:** "Azərbaycan və Ermənistan sərhədin müəyyənləşməsindən başlayaraq, sülh sazişinin imzalanmasına qədər uzanan prosesdə ikitərəfli əlaqələrə üstünlük verəcəklər. XİN rəhbərlərinin telefon təmasları da bu görüşdən sonra oldu və bu format Prezident İlham Əliyevlə Paşinyanın da telefon təmaslarının mümkünlüyünü aktuallaşdırdı. Bakı buna hazırdır, ikitərəfli formatın işləməsini də dəstəkləyən Azərbaycandır. Lakin Ermənistan tərəfi ikitərəfli formatdan qaçır. Bunun bir neçə mümkün səbəbi var. Birincisi, ikitərəfli format zamanı İrəvanın prosesi uzatmaq üçün manevr imkanları daralır. Halbuki, üçtərəfli və daha çox iştirakçının olduğu danışıqlar formatında bu imkanları var. İkincisi, ikitərəfli formatda əldə olunacaq razılaşmalara görə hədəf birbaşa Paşinyan və komandası olur. Üçtərəfli formatdakı razılaşmalara görə, Paşinyan bir çox hallarda günahkar tərəf kimi Rusiyanı göstərə bilir".

**A.Nərimanlı vurğulayıb ki, Paşinyan daxili ictimai rəydən hələ də ehtiyat edir:** "Müharibədən sonra ölkə başçısı İlham Əliyevlə birbaşa təmas qurması, telefon söhbətlərinin aparılması ona qarşı kampaniyanı genişləndirə bilər. Bu baxımdan dövlət başçısı İlham Əliyevlə Baş nazir Paşinyanın birbaşa təmasının önündə əngəllər var. Bu əngəllərdən biri də Rusiyadır. Moskva Bakı-İrəvan xəttindəki bütün prosesdə bu və ya digər formada iştirakçı olmaq imkanını əldən vermir. Təbii ki, Prezident İlham Əliyevlə Paşinyanın birbaşa təmas qurması Azərbaycan-Ermənistan arasındakı bütün problemlərin daha tez və effektiv həllinə imkan yarada bilər. Bu, regionun gələcəyi, sülhün möhkəmlənməsi baxımından da əhəmiyyətli olardı".

**İsmayıl Qocayev**

# Türkiyədən daha bir qardaşlıq ərmağanı

## Ankaranın Türk Tarix Muzeyi Parkında Rəsulzadənin heykəli ucaldıldı



**Türkiyənin paytaxtı Ankarada Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin heykəli ucaldılıb.**

**Bu barədə qərar Ankaranın Egimesgut Bələdiyyəsinin təşəbbüsü ilə Ankara Böyükşəhər Bələdiyyəsinin Məclisində verilib.**

Rəsulzadənin heykəli Ankaradakı türk dünyasının tarixi şəxsiyyətlərinin heykəllərinin qoyulduğu Türk Tarix Muzeyi Parkında ucaldılıb.

Qeyd edək ki, adıçəkilən parkda bir neçə ay əvvəl Azərbaycanın milli-istiqlal şairi Əhməd Cavadın da heykəli ucaldılıb.

**Türkoloq-alim, fəlsəfə üzrə elmlər doktoru Faiq Ələkbərlinin fikrincə, Ankaranın Türk Tarix Muzeyində Məhəmməd Əmin Rəsulzadənin heykəlinin ucaldılması çox gözəl və təqdirəlayiq təşəbbüsdür:** "Bu, qardaş ölkədə M.Ə.Rəsulzadəyə layiq olduğu dəyərin verilməsinin göstəricisidir. Cümhuriyyətimizin qurucusunun Türkiyə dövləti tərəfindən yüksək dəyərləndirilməsi iki qardaş ölkə arasındakı münasibətlərin daha da yaxşılaşmasına zəmin yaradacaq bir hadisədir. Bir növ Türkiyədən Azərbaycana qardaşlıq ərmağanıdır. Ümid edirəm ki, Rəsulzadənin heykəli yalnız Ankarada deyil, doğma Bakımızda da ucaldılacaq. Nəzərdə tutulan bir çox yerlər vardı ki, orada AXC qurucusunun abidəsinin qoyulması gözlənilirdi. Xüsusən də Bakı Dövlət Universitetinin qarşısında, Fəvvarələr meydanında. Amma onun adının əbədiləşdirilməsi istiqamətində real addımlar atılmır. Halbuki, Rəsulzadənin adı ən böyük yerə, ən böyük küçəyə verilməlidir. Rəsulzadə böyük dəyərimizdir. Ümid edirəm ki, Azərbaycanda da Rəsulzadə layiq olduğu dəyəri görəcək və şəhərin mərkəzində, ən gözəgəlimli yerində onun möhtəşəm abidəsi ucaldılacaq".

Məhəmməd Əmin Rəsulzadənin təkcə Azərbaycan yox, həmçinin türk və islam dünyası üçün önəmli tarixi şəxsiyyət olduğunu xatırladan F.Ələkbərli hesab edir ki, zamanla Azərbaycanın Quzeyində də, Güneyində də onun çoxsaylı abidələri ucaldılacaq.

**Şəymən**

# Ankara geri addım atmayacaq

## F-16-ların verilməməsi halında ABŞ Türkiyə kimi güclü bir müttəfiqini qarşısına almış olacaq



**ABŞ Konqresinin Nümayəndələr Palatasında Türkiyə əleyhinə qanun layihəsi qəbul edilib. Nümayəndələr Palatası ölkənin təkmilləşdirilmiş F-16 qırıcılarının və F-16 modernləşdirmə dəstlərinin Türkiyəyə satışını məhdudlaşdıran qanun layihəsini təsdiqləyib.**

Qanun layihəsi hər nə qədər ədalətsiz və əsassız olsa da, diqqətçəkən başlıca məqam qanun layihəsini yunan lobbisinə yaxınlığı ilə tanınan demokrat Kris Pappas və respublikaçı Frank Pallone tərəfindən təqdim olunmasıdır. Nümayəndələr Palatasında keçirilən səsvermədə 244 deputat iştirak edib və onlardan 179-u qanun layihəsinə səs verib. Pallone Pappas düzəlişi özündə iki məsələni ehtiva edir: Birincisi, ABŞ prezidentindən Türkiyəyə yeni satılacaq qırıcıların milli maraqlara uyğun olduğunu təsdiq etməsini tələb edir. İkincisi, Türkiyə son 120 gündə Yunanıstan hava sahəsini pozmadığı barədə hesabat təqdim etməlidir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, prinsip etibarilə, hər iki məsələ Amerikadan daha çox rəsmi Afinanın maraqlarına uyğun tərtib edilib. Ekspertin sözlərinə görə, Türkiyəyə satılacaq qırıcılar ABŞ-ın milli maraqlarına uyğundur. Çünki rəsmi Ankara NATO-nun aparıcı ölkəsidir:** "Amerika da NATO ölkəsidir. Digər tərəfdən Vaşinqton və Ankara yaxın şərq və bir sıra regionlarda strateji baxımdan ortaq hərəkət edir. ABŞ-ın strateji müttəfiqi olan Türkiyənin F-16 döyüş təyyarələri alması Ağ Evin maraqlarına necə uyğun olmaya bilər? O ki qaldı Türkiyənin son 120 gündə Yunanıstan hava sahəsini pozmadığı barədə hesabat təqdim etməsinə, Ankaranın buna gedəcəyini düşünmürəm. Təcrübə göstərir ki, Türkiyəyə nəyisə diktə etmək mənasızdır. Rəsmi Ankara belə bir hesabatı vermək məcburiyyətində deyil. Digər tərəfdən peyk görüntülərindən bu informasiyanı rahatlıqla əldə etmək olar. Pallone Pappas düzəlişi yunan lobbisinin qələbəsi olsa da, bu qələbədə rəsmi Ankaranın da "payı" var. ABŞ-da ildən-ilə güclənən yunan lobbisi Konqresə qədər nüfuz etməyi bacarıb. Məlum qanun layihəsinin qəbul edilməsi də bunu təsdiqləyir. Türkiyə bu məsələdə addım atmağa gecikib. Yunan lobbisi ABŞ-da fəaliyyət göstərən ən köklü lobbilərdəndir. Rəsmi Ankara kimi təcrübəli bir ölkə bu nüansı gözdən qaçırmamalı idi. Türkiyə xarici siyasətində lobbi və diaspor fəaliyyətini gücləndirməsə, Türkiyə əleyhinə daha ağır qanun layihələri qəbul edilə bilər".

**Analitikə görə, məhdudlaşdırıcı qanun layihəsinin qəbul edilməsinə baxmayaraq rəsmi Ankara geri addım atmayacaq:** "Təyyarələrin verilməməsi halında Vaşinqton Ankara kimi güclü bir müttəfiqi qarşısına almış olacaq. Türkiyə bu məsələdə çox ciddidir. Təsadüfi deyil ki, F-16-ların verilməsi məsələsi İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə razılığı qarşısında irəli sürülən şərtlərdə də öz əksini tapmışdı. Digər tərəfdən, Madriddə imzalanan memorandum hələ Türkiyə Böyük Millət Məclisində təsdiq edilməyib. Ərdoğanın da vurğuladığı kimi, verilən sözlər yerinə yetirilməsə, TBMM İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə "yox" deyəcək".

**İsmayıl Qocayev**

# Sülhməramlılara iş qalmır

## Ordumuzun Qarabağda sürətlə möhkəmlənməsi vəziyyəti xeyrimizə dəyişir



## Mülki ermənilərin Azərbaycan bayrağı altına keçməkdən başqa yolları qalmayıb

**Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki hərbi-siyasi, təhlükəsizlik şəraitində sakitlik hökm sürür. Ekspertlərə görə, bu dinclik Azərbaycanın həyata keçirdiyi tədbirlər və kəşfiyyat-nəzarət imkanlarını əhəmiyyətli dərəcədə genişləndirməsi ilə əlaqədardır. Fikir verirsinizsə, Qarabağ iqtisadi zonasının Rusiya sülhməramlıları olan hissələrində atəş səsləri eşidilmir.**

Bir növ erməni separatçılar onları vəcdə gətirəcək bütün şirnikləndirici mənbələrdən də məhrum olmuş kimi görünür. Azərbaycan dövlətinin Rusiya sülhməramlılarının xidmət apardığı bölgələrə dair yanaşması rəsmi Bakını mütləq qələbəyə - yekun sülh müqaviləsinə daha da yaxınlaşdırır və danışıqlarda hədsiz üstünlük qazandırır. Görünür, artıq Ermənistan üçün Qarabağ və oradakı ermənilərin taleyi məsələsi o qədər də maraqlı deyil. Çünki bu marağın revanşist meyillərlə oyanması Azərbaycanın elə reaksiya verməsi ilə nəticələnir ki, İrəvan dalana itələnir və ağzı qıfıllanır.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, hazırda Azərbaycan ordusu sülhməramlıların müvəqqəti dislokasiya edildiyi ərazilərə olduqca yaxın yerlərdə öz postlarını möhkəmləndirir. Hətta deyərdik ki, irəli çəkir. Ekspertin fikrincə, ermənilərin müqavimət göstərmək ruhu elə sarsılıb ki, onlar səssiz şəkildə geri çəkilirlər:** "Azərbaycan 2020-ci ilin 10 noyabr bəyanatından sonra atdığı addımları bu ilin martında Fərrux dağını və kəndini separatçılardan təmizləməklə daha da itiləşdirdi. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları üzrə yaratdığı iqtisadi hablar Ermənistanı iqtisadi investisiyalarla mühasirəyə alır. Azərbaycan bu cür təcridetmə metodunu hibrid müharibə elementləri ilə daha da zənginləşdirir. Rəsmi Bakı bunlarla yanaşı, Qarabağda yaşayan mülki ermənilərin təhlükəsizliyinə konstitusion zəmanət verir. Bu da onlara Ermənistanın mağmın və ikili mövqeyindən daha cəlbedici görünür. Bakı bu istiqamətdə tədbirlərini gücləndirəcək və təhlükəsizlik şəraitini ətraflı təhlil edəcək. Hətta yeri gələrsə, Ermənistandan bəzi məlumatlar da alacaq. Ermənistanı Qarabağla birləşdirən Laçın yoluna çəkilən alternativ yol istifadəyə verildikdən sonra sülhməramlılar Laçın şəhəri, Zabux qəsəbəsi və Sos kəndindən çıxacaq. Orada yaşayan mülki ermənilərin təhlükəsizliyi onların öz mövqeyindən asılıdır. Ən rahat yol Azərbaycan bayrağı altına keçməkdir. Artıq prosesə başlanıldığını da deyə bilərik, bu səbəbdəndir ki, separatçılar öz aralarında xain axtarır və casus ovuna çıxırlar".

**A.Kərimov vurğulayıb ki, Rusiya Müdafiə Nazirliyi sülhməramlı qüvvələrin yerləşdirildiyi ərazilərlə bağlı çəkilən adlarda hələ də köhnə terminlərə müraciət edir:** "Azərbaycan bu məsələni daim diqqətdə saxlayır və hərbi-diplomatik kanallarla lazımi etirazlarını Moskvaya çatdırır. Azərbaycanla Türkiyə strateji maraqlarla birgə addımlar ataraq Rusiyanın üzərinə sülhyaratma məsuliyyəti yükləyə bilib. Moskva buna görə Qarabağda hər hansı konfrontasiyada maraqlı deyil. Zaman keçdikcə, Azərbaycan rəsmi informasiyaların təqdimatında da "Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi" ifadəsini leksikondan yığışdıracaq. Müdafiə naziri Zakir Həsənovun bu yaxınlarda keçirdiyi xidməti müşavirəyə dair rəsmi məlumatda belə bir cümlə diqqəti çəkir: "Müşavirədə Azərbaycan-Ermənistan dövlət sərhədindəki və Qarabağ iqtisadi zonasındakı əməliyyat şəraiti geniş təhlil edilib". Yəni artıq "Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan əraziləri" ifadəsi "Qarabağ iqtisadi zonası" ilə əvəzlənir. Hazırda Rusiya sülhməramlılarının məlum ərazilərdən çıxarılması Bakı-Moskva danışıqlarında müzakirə mövzusu kimi görünmür. Amma 10 noyabr bəyanatının 2-ci ilindən sonra çıxarılma mövzusunda Bakı öhdəlikləri xatırlatmağa başlayacaq".

**İsmayıl Qocayev**

# DTX son illər çox ciddi addımlar atır

## Səbuhi Abbasov: "Detallı məlumatlar əldə edəndə başa düşürük ki, təxribatlar baş tutsa idi, ölkəmiz üçün çox ağır fəsadlar baş verə bilərdi"



**Prezident İlham Əliyev Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) rəis müavinini yüksək vəzifəyə təyin edib. Dövlət başçısı İlqar Əli oğlu Musayevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini vəzifəsindən azad edilməsi haqqında sərəncam imzalayıb.**

Bu barədə Prezident.az məlumat verib. Həmçinin ölkə liderinin növbəti digər sərəncamı ilə, İ.Musayev Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi təyin edilib.

**İnternet-media eksperti Səbuhi Abbasov "Şərq"ə açıqlamasında bildirib ki, DTX son 2-3 ildə xüsusən İnformasiya-Kommnunikasiya Texnologiyaları (İKT), media siyasəti, informasiya təhlükəsizliyi, müasir çağırışların təhlükəsiz şəkildə tətbiq edilməsi sahələrində çox ciddi addımlar atıb:** "Qurum sırf bu istiqamətlərdə ölkəmizə qarşı həm xaricdən, həm də daxildən gələn təhdidləri son bir neçə ildə daha peşəkarcasına əngəlləyib. Həmçinin sonradan detallı məlumatlar əldə edəndə başa düşürük ki, təxribatlar baş tutsa idi, ölkəmiz üçün çox ağır fəsadlar baş verə bilərdi.

Eyni zamanda 44 günlük Vətən savaşı zamanı erməni diasporu, onun himayə etdiyi bir çox regional təşkilatların Azərbaycanda adıçəkilən sahələrdə ciddi təhdidləri oldu. Məhz DTX-nın doğru fəaliyyət planı, ayıq-sayıqlığı nəticəsində bütün təxribatların baş verməsinə mane olundu.

Qeyd etdiyimiz kimi, Cənab Prezidentin bugünkü təyinatı əslində son üç ildə DTX-da gedən peşəkarlaşma prosesinin məntiqi nəticəsi idi. Həmçinin bütün bunlar orqanın tam müasir, yeni, qlobal, dünya trendlərinə cavab verəcək səviyyədə işini qurmağı bacardığının göstəricisidir. Azərbaycanın milli təhlükəsizliyini ən yüksək səviyyədə təmin etməyin öhdəsindən gəlir. Təyinatın nəticəsini, ölkəmiz üçün faydasını yaxın gələcəkdə görəcəyik. Bu hələ yekun deyil. Növbəti zamanlarda da müxtəlif istiqamətlərdə ciddi tədbirlər həyata keçiriləcək.

DTX-da aparılan son islahatlar sözün əsl və yaxşı mənasında ciddi rezonans doğurur. Həmçinin bir növ kadr inkubasiyası rolunu oynayır".

**Sücayət Mehti**

# "Ukrayna ciddi ərazilərini itirib"

## "Öldürülən əsgərin, dağılan şəhərlərin Qərbə dəxli yoxdur"

**Bütün dünyanın gözü Rusiya-Ukrayna müharibəsindədir. Dünya ölkələri Ukraynaya edilən təcavüzü görür və müxtəlif yollarla Kiyevə dəstək verir, işğalın qarşısını almağa çalışırlar. Bəzi ekspertlər savaşın qısa zamanda bitəcəyini proqnozlaşdırsalar da, bu ilin fevral ayında başlayan müharibə hələ də davam etməkdədir. Savaş boyunca Azərbaycan dövləti və xalqı, o cümlədən Ukraynada yaşayan soydaşlarımız da Kiyevə siyasi-humanitar dəstək veriblər. Hətta işğalçı ruslara qarşı savaşan Ukrayna ordusunun sıralarında azərbaycanlılar da yer alıb.**

Dünya ölkələrinin Kiyevə yardımına rəğmən, Ukraynada vəziyyət kifayət qədər gərgin və acınacaqlıdır. Şəhərlər dağılmış vəziyyətdə, milyonlarla insan ölkəsini tərk etmiş durumdadır. Baş verənlərlə bağlı "Şərq"in budəfəki müsahibi "Odessa Hüquq Akademiyası" Milli Universitetinin Kiyev Əqli mülkiyyət və Hüquq institutu Konstitusiya, Beynəlxalq hüquq və ictimai-hüquq fənləri kafedrasının professoru, hüquq elmləri doktoru, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki, Ukraynanın Əməkdar təhsil işçisi, "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri Arif Quliyevdir. Ukraynadakı Azərbaycan diasporunun fəallarından olan Arif Quliyevin diplomatiya xidməti, o cümlədən Ukraynanın elm və tədris sahəsində çox böyük xidmətləri və təcrübəsi var. O, terrorizmə qarşı mübarizə və başqa bir çox mövzularda elmi əsərlərin müəllifidir. A.Quliyev qəzetimizə müsahibəsində bir sıra məqamlara toxunub və prosesləri şərh edib...

**- Arif müəllim, Ukraynaya nə vaxt getmisiniz, fəaliyyətə necə başlamısınız?**

- 1989-cu ildə Bərdə rayonunun partiya komitəsində işləyirdim. O vaxt sovet ordusunun ehtiyatda olan zabitləri ilə birlikdə Kiyevdə ikiaylıq təkmilləşdirmə kurslarına göndərilmişdim. Müxtəlif millətlərdən olan zabitləri hərbi təmayüllü məktəbin binasında yerləşdirmişdilər. Otaq yoldaşım Yevgeni Kuşnaryov idi. O vaxtlar o, Xarkov vilayət Kommunist Partiyasının şöbə müdiri işləyirdi. Məni görəndə azərbaycanlılar haqqında mənfi danışmağa başladı. Dedi ki, "azərbaycanlılar mədəniyyətsizdir, sizdə demokratiya yoxdur, Sumqayıtda başkəsənlik ediblər" və s. Ondan Azərbaycanda olub-olmadığını soruşdum, olmadığını söylədi. Dedim ki, axşam söhbət edərik. Söhbətə gələndə əlində xeyli kağız-kuğuz var idi. Görünür, kağızları kimsə onu vermişdi. Başladı əlindəki kağızları oxumağa. Qurtarandan sonra üzünü mənə tutub "bunlarla bağlı nə deyə bilərsən?" dedi. Bildirdim ki, "ermənilərlə KQB (Sovet İttifaqı Rusiyasındakı dövlət təhlükəsizlik xidməti -red) "sağ olsunlar", bu uydurma materialları hazırlayıb sənə veriblər. Ona iki sual verdim. Soruşdum ki, azərbaycanlılar tərəfindən Sumqayıtda hansısa ağıllı, savadlı, qanacaqlı, əxlaqlı bir erməniyə sataşılıbmı? Əlindəki kağızlarda belə faktlar varmı? Dedi yoxdur. Dedim ona görə yoxdur ki, Sumqayıt hadisələrinin başlanmasına bir ay qalmış KQB ermənilərlə birlikdə bu prosesi hazırlamışdı. Onların hamısının adları məlumdur. Ermənilərin əksəriyyəti getmişdi, qalanlar üç-beş avara, dələduz idi. Onların da məqsədi Sumqayıt hadisələrini reallaşdırmaq idi. İkinci sual, Həmin hadisələri hansısa azərbaycanlının videoya çəkib dünyaya yayması ağlabatan, inandırıcı və bizim maraqlarımıza xoş olardımı? Dedi, xeyr, bunu ancaq ermənilər edərdi ki, sonradan proses ətrafında hay-küy qaldırsınlar. Həqiqətləri ona izah etdikdən sonra məni qucaqladı və biz dost olduq. Səhəri gün hərbi düzülüş zamanı əlindəki kağızları erməninin üzünə vurdu. Xoşagəlməz ifadələrlə onu aldatdığını söylədi. Bununla da ukraynalı ilə səmimi, gözəl dostluğumuz başladı. Hətta kursun axırında o öz ailəsini Xarkovdan, mən də Bərdədən dəvət etdik, yaxınlığımızı möhkəmlətdik. 1997-ci ildə həmin şəxs - Yevgeni Petroviç Kuşnaryov Ukrayna Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin olundu. 2007-ci ildə Kuşnaryov öldürülməsəydi, böyük ehtimal Ukraynada prezident olacaqdı və bugünkü hadisələr də baş verməyəcəkdi. Ağıllı, dərrakəli bir adam idi. Onunla bağlı xatirə yazılarım var.

**- Diplomatik missiyanız haradan başladı?**

- Dostum Kuşnaryov mənə Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında oxumağı məsləhət gördü və orada təhsil aldım. Akademiyada bir professor Azərbaycan barəsində mənfi düşüncədə idi, bizi pisləyirdi. Azərbaycan həqiqətləri ilə bağlı material hazırlayıb ona təqdim etdim. Yazdıqlarımı oxuyandan sonra qayıtdı ki, mən bu yazımla onu millilik baxımından tərbiyə etdim. Sonra həmin material professorun təşəbbüsü ilə onun şef-redaktor olduğu Prezident Administrasiyasının mətbuat orqanı olan "Politika i kultura" (Siyasət və mədəniyyət -red) jurnalında çap olunmaq üçün verildi. Material 2000-ci ilin sentyabr ayının 5-də "Millət Atası, nəyə görə Azərbaycan xalqı Heydər Əliyevdən xahiş etdi ki, məsuliyyəti öz üzərinə götürüb Respublikanı xilas etsin" adı ilə çap olundu. Məqalədə ukraynalı professorun öz səhvlərini etirafı etməsi də diqqəti cəlb etmişdi. Heydər Əliyev məni tanıyırdı, dəfələrlə qarşısında çıxışlarım olmuşdu.



**Arif Quliyev: "Ukraynada olanda deyirdim ki, ölkədə aclıq olsa, Qərb bizə çörək verməz, amma çəkinmədən silah-sursat verər ki, savaş olsun"**

Məqaləni Bakıya göndərdim və dilimizə tərcümə olunduqdan sonra 2000-ci il 26 sentyabrda "Azərbaycan", "Xalq", "Bakinski Raboçi" qəzetlərində dərc olundu. Sonra Heydər Əliyevlə GUAM-ın tədbirində yenidən qarşılaşdıq. Heydər Əliyev yanındakı şəxslərə məni göstərərək "Ukraynada "Millət atası"nı yazan budur" dedi. Onun yanında o zaman Xarici işlər naziri olan Vilayət Quliyev də var idi. Heydər Əliyev Vilayət Quliyevə dedi ki, "kadr axtarırsan, bu da kadr". Bu söhbətdən sonra Ukraynadakı səfirliyimizdə çalışmağa başladım. İkinci katib, müşavir kimi vəzifələrdə çalışdım. Yəni oldum diplomat.

**- Bəs elmi fəaliyyətə nə zaman başladınız?**

- 2005-ci ildə Ukrayna Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Ukrayna və Azərbaycan Respublikası Prezidentliyi İnstitutunun xüsusiyyətləri: dövlət idarəçiliyi aspekti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişəm. Elə həmin ildə Ukraynada dövlət idarəçiliyi üzrə elmlər namizədi, Azərbaycanda bu ixtisas olmadığından 2006-cı ildə hüquq elmləri namizədi alimlik dərəcələri almışam. Diplomatiya sahəsində vəzifəm bitdikdən sonra elmi fəaliyyətimi bu istiqamətdə, yəni diplomatiya sahəsində davam etdirdim. Ukrayna Milli Aviasiya Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunda "Beynəlxalq hüquq", "Diplomatiya və konsulluq xidməti", "Diplomatik protokol və etiket", "Beynəlxalq təşkilatlar" və başqa fənlər üzrə dərs deməyə başladım. Hər bir dövlətin əsasını təkcə onun məlum dövlətçilik əlamətləri deyil, əsasən onun ərazisində yaşayan, öz mənəviyyatına, mədəniyyətinə, adət-ənənələrinə, milli dəyərlərinə, inanclarına bələd olan insanlar təşkil edir. Bu baxımdan mən də elmi fəaliyyətim zamanı çalışmışam ki, öz mövqeyimlə konkretlik, qətiyyətlilik, məlumatın təqdim edilməsinin sadəliyi, Azərbaycanımızın qarşılaşmış olduğu münaqişə və vəziyyətin reallığı barədə ətrafa inandırıcı amilləri çatdırım. Buna görə də 2009-cu ildə doktorluq elmi dərəcəsi almaq üçün terrorizmlə əlaqədar mövzu götürdüm. Elmi məsləhətçim dedi ki, "səni birmənalı dəstəkləyə bilmərəm, bunun üçün Azərbaycana getməliyəm". Onunla birlikdə Azərbaycana gəldik, burada qaçqın ailələri ilə görüşümüz oldu. Bizi Prezident Administrasiyasında və Milli Məclisdə qəbul etdilər. Xarici İşlər Nazirliyində və digər qurumlarda olduq. Şəhidlər Xiyabınına və Qubada Soyqırım Muzeyinə getdik, müxtəlif KİV-lərə müsahibələr verdi və s. Bundan sonra elmi məsləhətçim məni tam dəstəkləyəcəyinə söz verdi. Nəticədə 2012-ci ilin noyabr ayında Ukrayna Ali Radasının Qanunvericilik İnstitutunda doktorluq müdafiəsi üzrə elmi metodologiya əsasında aparılan Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinin işıqlandırılması üçün "Beynəlxalq terrorizmə qarşı mübarizədə prezident institutu rolunun müqayisəli hüquqi təhlili (Ukrayna və Azərbaycan Respublikası timsalında)" təsdiqlənərək hüquq elmləri doktorluq işimi uğurla müdafiə etdim. Ukraynanın Elm və Təhsil, Gənclər və İdman Nazirliyinin 17 may 2012-ci il tarixli qərarı ilə mənə Beynəlxalq Hüquq kafedrasının dosenti, Ukraynanın Elm və Təhsil Nazirliyinin 23 aprel 2019-cu ildə isə Beynəlxalq Hüquq kafedrasının Professoru elmi dərəcəsi adı verildi. 2020-ci ildə Ukrayna Ali təhsil Milli Elmlər Akademiyasının Akademiki seçilmişəm. Həmin elmi dərəcələrlə Azərbaycan-Ukrayna elmi və digər əlaqələrlə müvafiq faktlarla Azərbaycanımızın qarşılaşmış olduğu həmin faciənin səbəb-nəticə əlaqələrinin diqqətə çatdırılmasına çalışmışam. 2013-cü ildə Ukraynanın Əməkdar təhsil işçisi fəxri dövlət adına, 2016-cı ildə isə Azərbaycan Prezidentinin "Tərəqqi" medalına layiq görülmüşəm.

**- Ukraynada azərbaycanlıların təşkilatlanması, diaspora fəaliyyətinin genişlənməsi barədə nə deyə bilərsiz?**

- Təşkilatlanmağımız 1997-ci ildə Heydər Əliyevin Ukraynaya səfəri ilə bağlıdır. Heydər Əliyevlə görüşün nəticəsi olaraq həmin vaxt diaspora rəhbəri seçilən Tələt Əliyev 2001-ci ildə Azərbaycanın Ukraynada səfiri təyin olunaraq 10 ilə yaxın Diplomatik korpusumuza rəhbərlik etdi. O, çox vətənpərvər adam idi. Uzun müddət Ukraynada yaşamışdı. Həmin ölkənin dəyərlərini yaxşı bilirdi. Bilirsiz, səfir təmsil etdiyi ölkəsinin tarixini, mədəniyyətini, siyasətini mükəmməl şəkildə öyrənməli, bilməlidir. Lazım olan anda ölkəsini müdafiə etməyi, təbliğ etməyi bacarmalıdır. Yaxşı yadımdadır ki, Heydər Əliyev Ukraynaya səfər edəndə ilk görüşünü diaspora təmsilçiləri ilə keçirirdi. Bu addım həm Ukrayna rəhbərliyinə mesaj xarakteri daşıyırdı, həm də azərbaycanlılarda məsuliyyət hissini artırırdı. Əfsuslar olsun ki, zaman-zaman diaspora təşkilatlarımız arasında ziddiyyət, anlaşılmazlıq olur. Hətta aradakı gərginlik qarşıdurma həddinə qədər çatır, ermənilərdən fərqli olaraq bir-biri ilə düşmənçilik edirlər. Bu, bizim üçün yaramaz hərəkətlərdir, bununla da ermənilərin əlinə arqument vermiş oluruq. Təsəvvür edin, həmin təşkilatlardan birinin tədbirinə getdiyim üçün diasporanın qurultayına məni dəvət etməmişdilər. Harada azərbaycanlılarla bağlı məsələ var, mən orda iştirak edirəm. Çalışıram ki, imkan daxilində sağlam mənada fəaliyyət üçün arqumentlərlə onlara öz xeyirxah fikirlərimi çatdırım.

**- Diaspora təşkilatları arasında hansı problem var ki, hətta milli məsələlərdə belə bir araya gəlmək qeyri-mümkün olur?**

- Söhbət diaspora rəhbərliyində olan adamlara münasibətdən gedir. Çox ürəkağrıdan məqamdır ki, Ukraynadakı diaspora təşkilatlarımız orada, Rusiyada adamlar tutaraq bir-birinin əleyhinə kampaniya aparırlar. Başqa diasporalarda belə şeylər yoxdur. Həmişə deyirdim ki, ermənilər bizi "ayıltmaq üçün" əllərindən gələni edirlər, lakin biz ayılmırıq. 44 günlük Vətən müharibəsi, dövlətimizin, xalqımızın, ordumuzun və təbii ki, cənab Prezidentimizin rəhbərliyi ilə əldə etdiyimiz qələbə bizi bəlkə də 200 illik tariximizdə ilk dəfə olaraq, Milli Zəfərimiz naminə ayıltdı. Hətta Ukraynada deyirdim ki, Azərbaycanın "sağ əli sizin çiyninizə olsun, siz də işğal olunmuş ərazilərinizi həmin ruhla geri qaytarasınız".

**- Rusiya-Ukrayna müharibəsi aylardır davam edir. Ukrayna torpaqları işğal altındadır və ölkədə çox ciddi fəlakət yaşanır. Uzun illər Kiyevdə yaşamış diplomat kimi prosesləri necə dəyərləndirirsiniz?**

- Ukrayna əhalisinin rəsmi 30 faizi, qeyri-rəsmi isə daha çoxu Rusiya ilə qohumluq əlaqələri və başqa bağlılıqlara sahibdir. Qeyd edim ki, müharibə başlayanda prezident də, xarici işlər naziri də etiraf etdi ki, "biz gərək Qərbin vədlərinə inanmayaydıq".

**- Yəni rəsmi Kiyev Qərbə aldandımı?**

- Aldandı. Ukraynada olanda deyirdim ki, ölkədə aclıq olsa, Qərb bizə çörək verməz. Amma çəkinmədən, tərəddüd etmədən silah-sursat verər ki, savaş olsun. Rusiya Ukrayna ərazilərini işğal etməklə özünü çox alçaldıb. Bu alçaltma da Qərbin əlinə əsas verib ki, Moskvanı bacardıqları qədər küncə sıxışdırsınlar. Qərb Ukrayna ərazisində Kiyevin əliylə Rusiya ilə müharibə aparır. Mənzərə budur. Ukrayna ancaq öz ərazisinin müdafiəsi ilə məşğuldur. Rusiya isə 2014-cü ildən Ukrayna ərazilərinin işğalına başlayıb. Bu ərazilər BMT-nin Təhlükəsizlik Şurası tərəfindən də təsdiq olunub. Qərbin məqsədi Rusiyanı çökdürmək, məhv eləməkdir. Təəssüflər olsun ki, Moskva hələlik bunu dərk edə bilmir və işğalı davam etdirir. Rusiya BMT TŞ-nın üzvüdür. TŞ-nin digər üzvləri olan 5 ölkə Ukraynanı dəstəkləyir. 5 ölkə diplomatik səviyyədə birləşib, problemin həlli barədə ciddi fikirləşmirlər. Çünki həmin ölkələrin də öz maraqları var.

**- Müharibənin davam etməsi Qərbə sərf edir?**

- Bəli, sərf edir. Çünki Ukraynada məhv olan əsgərin, dağılan şəhərlərin, obyektlərin Qərbə dəxli yoxdur. Öldürülən ukraynalılardır, viran qalan Ukrayna şəhərləridir.

**- Rusiyanı geri addım atmağa məcbur etmək mümkündürmü?**

- 2014-cü ildə Bakıda olarkən Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenkoya dedim ki, "siz də diplomatsınız, mən də. Əslən ukraynalı olsanız da, indi Rusiyadasınız. Mən isə Ukraynada yaşayıram azərbaycanlıyam. Əgər tərəflər arasında problem varsa, orada başlıca günahkar diplomatlardır". Diplomatiya amili ilə münaqişənin dayanmasına köməklik göstərin. Diplomatların missiyası qarşıdurmanı, gərginliyi ilk andaca aradan qaldırmaqdır. Deyirdim, çalışın, Rusiya-Ukrayna münasibətlərinin pisləşməsinə şərait yaradılmasın. Hesab edirəm ki, müharibədə günahı olanlardan biri də elə Valentina Matviyenkodur. Müharibə Rusiyanın Təhlükəsizlik Şurasında müzakirə olunub. Günlərlə müxtəlif dairələrdə müzakirələr gedib. Niyə Matviyenko proseslərdən xəbərdar olmayıb?!..

**- Rəsmi Bakının və azərbaycanlıların Ukraynaya siyasi-humanitar dəstəyini qənaətbəxş hesab edirsizmi?**

- Ukraynalıların bizə məhəbbəti çox yüksəkdir. Bakıda I Avropa Oyunlarında Ukrayna idmançılarını görəndə bütün stadion ayağa qalxdı, onları alqışladı. Bu, ümumxalq sevgisidir. Azərbaycan dövləti və xalqı Ukraynaya hər zaman yüksək səviyyədə dəstək göstərib. Ukrayna dövləti və xalqı bizi daim hörmətlə qarşılayıb. Qeyd edim ki, mən Ukraynanı məcburiyyət qarşısında qalaraq müvəqqəti tərk etdim. Ailəm, xüsusən nəvələrim üçün təhlükə yaranmasını istəmədim. Amma Ukraynadan çıxanların çoxu geri qayıdıb. Mən də hazırlaşıram, yaxın müddətdə Ukraynaya dönəcəm.

**- Sizcə, Rusiya-Ukrayna savaşı necə başa çatacaq? Müharibə dayansa belə ərazi itkiləri olacaqmı?**

- Ukrayna onsuz da ciddi ərazilərini itirib. Donetsk və Luqansk, Krım əraziləri tam işğal olunub, Xerson, Xarkov, Mariopul və başqa ərazilərdə də rusların nəzarəti mövcuddur. Ukraynanın məqsədi bu əraziləri geri qaytarmaqdır. Məhz elə bu geri qaytarmaq cəhdləri səbəbindən qurbanların sayı artmaqdadır. Türkiyə müəyyən cəhdlər göstərsə də, hələlik nəticə yoxdur. Ankara sadəcə ona nail ola bildi ki, dünyada taxıl böhranı, aclıq yaşanmasın. Lakin məsələnin digər yönlərini də həll etmək lazımdır. Əfsuslar ki, Avropa ölkələrinin sabahkı dünya üçün heç bir məsuliyyətləri yoxdur.

**İsmayıl Qocayev**



# "Taksi və ictimai nəqliyyatda qiymətlər arta bilər"

## Fuad İbrahimov: "Karbohidrogen ehtiyatları ilə zəngin Azərbaycan indiki vəziyyətdə buna getməməlidir"



**95 və 98 markalı benzinin qiymətindəki artımdan sonra taksi qiymətlərində artım müşahidə olunub. Cəmiyyətdə belə fikir dolaşır ki, 92 markalı benzin də qalxacaqsa, ictimai nəqliyyat və taksilərin qiymətində daha kəskin artım müşahidə olunacaq.**

*95 və 98 markalı benzindən istifadə edən avtomobillərin VİP taksi xidməti göstərdiyini deyən iqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə bildirib ki, bahalı markalı avtomobillərin göstərdiyi xidmətdə qiymət artımı ola bilər:* "Kütləvi şəkildə nə ictimai nəqliyyatda, nə də taksi xidmətlərində 95 və 98 markalı benzinlə işləyən daşıma vasitələrindən istifadə edilir. Dünyada neftin bahalaşması ilə əlaqədər 92 markalı benzinin də bahalaşa biləcəyi fikirləri dolaşır. Lakin karbohidrogen ehtiyatları ilə zəngin Azərbaycan indiki vəziyyətdə buna getməməlidir.

2021-ci ilin yanvarında da bu proses baş vermişdi. Həmin zaman Nazirlər Kabineti açıqlama verdi ki, kənd təsərrüfatı sektorunda və daşınmada heç bir qiymət artımı olmayacaq.

Amma bunun əksi müşahidə olundu. Əgər yanacağın qiymətində artım olarsa, o zaman təbii şəkildə həm taksi xidmətlərində, həm də ictimai nəqliyyatda bahalaşma qaçılmaz olacaq.

Yanacağın bahalaşması daşımaya təsir edəcəyi üçün zəncirvari şəkildə bir çox məhsulların da qiyməti qalxacaq".

**Nihat Müzəffər**

# Aİ-95 markalı benzinin bahalaşması qiymətlərə də təsir edəcək

## "Kim deyir ki, mənim maşınım yoxdur və bunun mənə təsiri yoxdur, bu, yanlış fikirdi"

**"Aİ-95 markalı benzinin qiymətinin bahalaşmasını onun Avropada istehsal olunub ölkəyə gətirilməsi ilə əlaqədar olduğunu qeyd edirlər. Əslində Azərbaycan neftinin ixrac edilərək ölkəyə benzin və s. məhsul formasında gətirilməsi yaxşı hal deyil". Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı-ekspert Rauf Qarayev deyib. Onun sözlərinə görə, bəzi hallarda nəqliyyat xərcinin ucuz başa gəlməsi və digər ölkənin nüfuzu alış qiymətinə təsir edə bilər.**




Yəni Qərbi Avropaya benzinin SOCAR-ın Şərqi Avropadakı zavodundan göndərilməsi daha əlverişlidir: "Amma məsələ budur ki, birinci evin içi, sonra çölü. Bəs Aİ-95 və Aİ-98 hansı avtomobillər üçündür və bunun əhaliyə təsiri varmı? Əlbəttə var, kim deyir ki, mənim maşınım yoxdur və bunun mənə təsiri yoxdur, bu, yanlış fikirdi. Ətrafımda bir çox insanlar var ki, onların avtomobilləri yüksək oktanlı benzin ilə işləyir. Bəziləri bunu bilməyərəkdən və ya bilərəkdən daha ucuz olsun deyə, Aİ-92 markalı benzindən istifadə edir. Bu isə avtomobilin ömrünü qısaldır. Avro 5 keçidlə bağlı istehsal olunan maşınlarda Aİ-95 və Aİ-98 markalı benzin üçün nəzərdə tutulub. Ölkəyə yeni gələn maşınlar da bu marka üçün nəzərdə tutulub. Görünən odur ki, bizi qabaqda qiymət artımları gözləyir. Bu başlanğıcdı".

Aİ-95-in bahalaşmasının digər sektorlarda qiymət artımına təsirinə toxunan iqtisadçı hesab edir ki, qiymət artımı əsasən Avro 5-lə işləyən avtomobillərin ucuzlaşması və Aİ-92 benzinlə işləyən avtomobillərin bahalaşmasına gətirib çıxara bilər: "Belə ki, Avro-5 standartı ilə, yeni yanacağı Aİ-95 və Aİ-98 marka benzinlə işləyən, misal üçün, "Hyunday" avtomobillərinin bəzi markaları ucuzlaşa bilər. Ümumilikdə, bazarda istənilən artım amili qismən də olsa, digər sahələrə təsir edir. Ola bilsin, gözəçarpacaq dərəcədə deyil. Amma ümumi fikir versək görərik ki, bazarda qiymətlər artır. Avtomobil bazarında ehtiyat hissələrinin qiyməti artacaq. Qismən də olsa, yeyinti sənayesində qiymət artımı var və digər infrastrukturda müəyyən bahalaşma müşahidə olunur. Əslində hər bir qiymət artımında ciddi səbəb olmalıdır. Alıcılıq qabiliyyəti aşağı olmasına baxmayaraq marketlərdə qiymət artırsa, bunun qarşısını almaq üçün real addımlar atılmalıdır. Biz isə ancaq pafoslu çıxışlara şahid oluruq. Avropada benzinin qalxması enerji krizisi və geosiyasi amillərlə bağlıdır. Bəs bizdə niyə bu baş verir? Azərbaycan özü enerji satışı ilə məşğuldursa, benzinin bahalaşması düzgün deyil. Qaldı ki, geosiyasi amillərə, burada Rusiya-Ukrayna məsələsindən qismən də olsa kənarda olduğumuz üçün qiymət arta bilməz. Qiymət artımı ilə bağlı ciddi səbəb olmalıdır. Təəssüf olsun ki, bizdə ciddi səbəb göstərilmədən addım atılır, sonra isə səbəb axtarılır ki, nə deyək!".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"**

# O gün gəldi

## Yaxın günlərdə zəngilanlı ailələr doğma yurdlarına köçürüləcək

**Azərbaycan dövləti üçün prioritet məsələ işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın qısa müddətdə yüksək səviyyədə təmin edilməsidir. Ölkə rəhbərliyi Böyük Qayıdışı yüksək səviyyədə təmin etmək əzmindədir. Hazırda işğaldan azad olunan ərazilərdə görülən önəmli fundamental işlər Azərbaycanın bu istiqamətdəki gücünü bir daha göstərir. Məsələ eyni zamanda Azərbaycan ictimaiyyətinin və cəmiyyətinin də daim diqqətindədir.**

Bu gün böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma işləri sürətlə gedir. Yeni avtomobil və dəmir yolları, hava limanları, körpülər, tunellər, elektrik və su xətləri, müasir yaşayış kompleksləri, məktəblər, xəstəxanalar, su-elektrik stansiyaları tikilir. Dövlət tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına ən qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib.

Prezident İlham Əliyevin növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair müəyyənləşdirdiyi 5 milli prioritetin bir bəndi məhz işğaldan azad olunmuş ərazilərə Böyük qayıdış planının reallaşması prosesidir. Bu gün həmin ərazilərdə həyata keçirilən işlər deməyə əsas verir ki, 2022-ci il Azərbaycan tarixinə böyük qayıdış ili kimi düşə bilər. Çünki dövlət başçısının bu yaxınlarda Zəngilan rayonunda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində səsləndirdiyi fikirlər onu deməyə əsas verir ki, "Böyük Qayıdış"a gedən yol uzaq deyil və bu tarixi yola ilk çıxan Ağalı kəndinin sakinləridir.

Yaxın zamanlarda Azərbaycan işğaldan azad etdiyi torpaqlarda ilk məskunlaşma prosesinə start verəcək. Zəngilan rayonunun Ağalı kəndlərində inşa edilən ilk "ağıllı kənd"ə əhalinin köçürülməsi üçün hər şey hazırdır. Yaxın günlərdə Ağalı kəndinin sakinləri öz kəndlərinə köçüb, orada yaşayacaqlar.

Hazırda Ağalı kəndində təmir-bərpa işlərində çalışan Zəngilan rayonunun Ağalı kənd sakini Vəliyəddin Paşayevin sözlərinə görə, ilkin olaraq 41 ailənin köçürülməsi iyul ayının 19-20-də gerçəkləşəcək. Ailə üzvlərimiz gedib analiz verəcək, testdən keçəcəklər. Bu prosedurlar da köç prosesi üçün nəzərdə tutulub. Artıq köç prosesinə hazırlıqlar görülür.

İyulun 19-da Zəngilan rayonunun Ağalı kəndinə köçəcək ailələrdən biri də Ceyhun və Nərmin Həsənovlardır. Həmin günü səbirsizliklə gözləyən keçmiş məcburi köçkün ailəsi artıq bütün əşyalarını yığıb, köçün başlayacağı saatı gözləyirlər.

Ceyhun Həsənov Zəngilan Rayon İcra Hakimiyyətində şöbə müdiri işləyir. Həyat yoldaşı Nərmin Həsənova isə Ağalı kəndində fəaliyyətə başlayacaq yeni məktəbin direktorudur. Yeni ailə quran cütlük bundan sonrakı həyatlarını doğma Ağalı kəndində davam etdirəcəklər.



AzVision.az -a danışan C.Həsənov tarix yaxınlaşdıqca keçirdikləri hissləri sözlə ifadə etməyin çətin olduğunu vurğulayıb. Deyib ki, ancaq tarixi anı yaşayanlar nə hiss etdiklərini bilər: "Ağalı kəndindən çıxanda 8 yaşım var idi. Beynimdə ancaq uşaqlıq xatirələri, evimiz, küçəmiz qalıb. Torpaqlarımız işğaldan azad olunandan sonra kəndimizə getmişdik. Sevinirəm ki, 30 ildən sonra dədə-baba yurduna qayıdırıq. Evimizin yerində salınan kənd əvvəlkindən də möhtəşəmdir və Qafqazda analoqu yoxdur. Ora qayıtdıqdan sonra vəzifəmizi layiqincə yerinə yetirməyə çalışacağıq. Bizə bu sevinci yaşadan Ali Baş Komandana, igid ordumuza minnətdaram. Allah qazilərimizə can sağlığı versin, şəhidlərimizə rəhmət etsin".

Həsənovlar ailəsi Ağalı kəndində 30 nömrəli evdə qalacaq. Amma ailə yaşayacaqları evi hələ görməyib: "Nömrəsini bilirik, amma evimizi köç zamanı görəcəyik. İmkan daxilində kənd təsərrüfatı ilə də məşğul olmaq niyyətindəyəm".

**Millət vəkili Ceyhun Məmmədov isə deyib ki, keçmiş qaçqın və məcburi köçkünlər həmişə öz yurd-yuvalarına qayıdacaqları günü gözləyiblər. Artıq həmin o gün gəlib. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Ordumuz torpaqlarımızı erməni işğalından azad edib:** "30 ilə yaxın erməni tapdağında qalmış tarixi torpaqlarımızda müasir innovasiyaların tətbiqi ilə quruculuq işləri icra edilir. "Ağıllı şəhər" və "Ağıllı kənd" layihəsi də ölkəmizdə ilk dəfə olaraq işğaldan azad edilən ərazilərimizdə böyük uğurla tətbiq edilib.

"Ağalıda "Ağıllı kənd" layihəsi ilə müasir evlər tikilib. Həmin kəndin sakinlərinin o evlərdə yaşaması üçün bölgü aparılıb. Yaxın günlərdə zəngilanlı ailələrin ora köçürülməsi nəzərdə tutulur. Bu isə artıq "Böyük Qayıdış"ın başlanğıcı hesab edilir".

Millət vəkili hesab edir ki, Zəngilan rayonu Ağalı kəndində insanların qayıdışı, orada bütün zəruri imkanlarla təmin edilmiş evlərdə yaşaması dövlətimizin diqqətinin bariz nümunəsidir: "Böyük Qayıdış" sözsüz ki, insanların azad edilmiş ərazilərdə məskunlaşması ilə kifayətlənmir. Məskunlaşma ilə yanaşı burada məktəblər, bağçalar, xəstəxanalar tikilir, insanların məşğulluğunu təmin etmək üçün də mühüm addımlar atılır. "Ağıllı kənd" layihələrində əsas hədəf və məqsəd o olub ki, ora qayıdan insanlar işlə təmin olunsun. Bu prinsip artıq nəzərə alınıb. Bütün bunlar isə öz ata-baba yurduna qayıdan insanların məşğulluğuna, sosial təminatına yönələn addımlardır".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# "Mən Şuşaya niyə gedə bilmirəm"

## Vaqif Poeziya Günlərinə dəvət almayanlar od püskürür

**Azərbaycan poeziyasının incisi, görkəmli şair Molla Pənah Vaqifin xatirəsini yad etmək münasibətilə Şuşada Vaqif Poeziya Günləri keçirilib. Qırx illik tarixi olan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra artıq ikinci dəfədir təşkil olunur.**

Məhz elə bu məqsədlə bir sıra ictimai şəxslər, mədəniyyət adamları, incəsənət xadimləri, müğənnilər, o cümlədən yazıçılar Şuşaya yollanıblar. Onların arasında Rəşad Məcid, Baba Vəziroğlu, Elçin İsgəndərzadə, Elşən Əzim, Arzu Əsəd, İntiqam Yaşar, Ramiz Qusarçaylı kimi yazıçılar olub. Bu şəxslər və daha çoxu öz sevinclərini sosial media üzərindən insanlarla bölüşüblər. Bir də bu səfərdə iştirak edə bilməyənlər olub. Onlar isə sosial mediada öz etirazlarını yazıblar. Kimi bunu ayrı-seçkilik, kimi yaltaqlığın nəticəsi, kimi də təslimiyyət kimi qələmə verib.

**"Şərq" sözügedən yazıçılardan bəzilərinin paylaşımlarını təqdim edir: AYB-nin üzvü, şair Qılman İman yazır ki, Bu Vətən hamınındır, hamının da Şuşaya, digər azad olunmuş rayonlara getməyə haqqı var:** "Şuşaya getmək üçün lazım gəlsə dava da etməliyik! Çünki Şuşa bizim qürurumuzun, sevincimizin Allaha yaxın yerində yerləşir. Şuşaya getmək hamı üçün maraqlı olmalıdır. Hamı istəməlidir. Şuşaya getmək mənim üçün ən müqəddəs arzulardan biridir. Mən 13 ildir AYB-nin üzvüyəm. Azərbaycanda çox cəmiyyət arasında tanınan, özünə görə oxucusu olan bir qələm adamıyam. Mən AYB-nin üzvüyəmsə, Vaqif Poeziya Günləri keçirilirsə, mən Şuşaya niyə getməməliyəm? Şuşaya Vaqif günlərinə təkrar gedənlərin hansı məndən artıqdır? Mən də bu ölkənin vətəndaşı olaraq dövlətin yaratdığı imtiyazlardan bəhrələnmək istəyirəm. AYB-nin siyahısı sanki heç vaxt yenilənmir. Hər yerə eyni adamlar gedir. Sədr əzəm Anar müəllim siyahını tutanda görmədimi ki, bu adamların böyük əksəriyyəti ötən il Şuşaya gediblər?

Ötən il Vaqif Poeziya Günləri keçiriləndə umub-küsənlərə özüm etiraz edirdim ki, əsas odur Şuşa bizdədir, növbəti illərdə gedərik. İndi belə görünür, AYB hər il eyni adamları göndərəcək. Bu ölkədə məmur özbaşınalığı, oliqarx müştəbehliyi göründə qınayırıq ki, cahildirlər, savadsızdırlar, kitab oxumurlar... Kitab oxumayanlar bir yana, kitabı yazanlar haqqı tapdayanda nə deyək? Ne deyək, Anar müəllim?

***"Şuşaya getmək də təslimiyyət istəyərmiş"***

**Tanınmış yazıçı Şərif Ağayar da eyni dərddən gileylənib. Yazıçı yazır ki, kim kiminlə məzələnmək istəyir, deyir, səni niyə Şuşaya aparmayıblar:** "Bu həm də hamam suyu ilə dost tutmaqdır. Yəni mənim nəzərimdə sən daha laqeyqsən. Ümumilikdə bu nə düşüncədir? Şuşaya getməyə layiq olmayan adam var ki? Vətəndir e... bu, əfəndilər. Hamının getmək, görmək, gəzmək haqqı var. Ən sarsaq adamın da. Bizi təməl haqlardan hər zaman məhrum edib, kiminsə siyahısına möhtac qoyurlar. Tam bir avtoritarizm göstəricisi. Misal üçün, Anara yaltaqlanmağın sonsuz avantajları içərisində Şuşaya gedə bilmək də var. Şuşaya getmək də təslimiyyət istəyərmiş".

Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının üzvü, gənc şair Turan Tural da bir gün öncə öz feysbuk hesabında bu sözləri paylaşıb: "Sabah Şuşada Vaqif Poeziya Günləri başlayır. Ölkənin ən yaltaq şairləri (bir neçə istisna) orada olacaq. Şəkillərdən görəcəksiniz... P.S: Təbii ki, Rüstəm Behrudi kimi istisnalar var...".

**Çimnaz Şahlar**

# Əlimizdə xəritə olmadığına görə minaların təmizlənməsi uzun çəkəcək

## İşğaldan azad olunan ərazilərdə işləyən, müəyyən səbəblərdən ora gedən hər bir vətəndaş özü də minanın real təhlükə olduğunu nəzərə almalı və son dərəcə ehtiyatlı olmalıdır

**İstənilən lokal və genişmiqyaslı müharibələrin başa çatmasından sonra həmin ərazinin ən böyük problemlərindən biri məhz ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsindən ibarət olur. Müharibəyə və işğala məruz qalmış bir sıra ölkələr, o cümlədən Azərbaycan da bu prosesdən hələ də əziyyət çəkir. Ermənistanın təcavüzkar siyasəti təkcə işğaldan azad olunmuş əraziləri viran qoymaqla nəticələnməyib. Eyni zamanda bu ərazilərə dinc həyatın qayıtmasını gecikdirmək, quruculuq-bərpa işlərinə mane olmaq üçün ermənilər məqsədyönlü şəkildə həmin ərazilərə on minlərlə mina basdırıblar.**



Bu səbəbdən müharibədən iki ilə yaxın vaxt keçsə də, işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatları davam edir. Amma həmin ərazilərdə hələ də çoxlu sayda mina və partlamamış hərbi sursat qalmaqdadır. Ərazilərin minatəmizləmə işi kifayət qədər çətin, uzunmüddətli və təhlükəli prosesdir. Ani ehtiyatsız davranış bədbəxt hadisə ilə nəticələnir. Müharibədən sonra xeyli sayda mülki şəxs və hərbçi minaya düşərək həlak olub və yaralanıb. Bir sıra texnika yararsız hala düşüb. Elə bu yaxınlarda da işğaldan azad olunan rayonlarımız minaya düşmə ilə bağlı iki bədbəxt hadisə qeydə alınıb. Cəbrayıldа "Azərsun"un maşını minaya düşüb, sürücü xəsarət alıb. Aparılmış ilkin araşdırmalarla kənd-təsərrüfatı fəaliyyəti ilə məşğul olan "Azərsun Holdinq"in sürücüsü Şamil Məmmədovun rayonun Dağ Tumas kəndi ərazisində yük maşını ilə hərəkətdə olarkən tank əleyhinə minaya düşməsi nəticəsində ağır dərəcəli bədən xəsarətləri alması müəyyən edilib. Hazırda faktla bağlı Cəbrayıl Rayon Prokurorluğunda araşdırma aparılır.

Xocavənddə isə Türkiyə vətəndaşının idarə etdiyi ekskavator minaya düşüb. Xocavənd Rayon Prokurorluğundan verilən məlumata görə,

Xocavənd rayonunun işğaldan azad edilmiş Tağaverd kəndi ərazisində təmir-tikinti işləri aparılan zaman tikinti şirkətində ekskavator sürücüsü kimi çalışan Yalpiri Yıldırayın minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilib.

**Hərbi ekspert Arparslan İmamqulu "Şərq"ə açıqlamasında deyib ki, postmüharibə dövründə bu cür hadisələrin baş verməsi gözlənilən idi:** "Bunun qarşısını almaq üçün də ciddi işlər görülür. Hər saat, hər dəqiqə ərazilərin minalardan təmizlənməsi prosesi gedir və xəbərdarlıq işarələri qoyulur. Bir sözlə, Azərbaycan dövlətinin hazırda prioritet vəzifələrindən biri məhz azad olunan əraziləri tamamilə təhlükəsiz vəziyyətə gətirilməsidir. Amma bu ərazilərdə işləyən, müəyyən səbəblərdən ora gedən hər bir vətəndaş özü də minanın real təhlükə olduğunu nəzərə almalı və bu ərazilərdə son dərəcə ehtiyatlı olmalıdır. 30 ilə yaxın torpaqlarımız erməni işğalı altında qalıb.

Bu müddət ərzində də düşmənlərimiz minaların növlərini, relyefin müxtəlifliyini və basdırılma üsullarını məhz çoxlu sayda insan tələfatının olması üçün məqsədli şəkildə seçiblər. Nə zaman basdırılmasından asılı olmayaraq, hər bir mina, partlamamış hərbi sursat, əldəqayırma partlayıcı qurğular ölümcül fəsadlar törətməyə qadirdir. Və işğaldan azad olunan əraziləri minalardan tamamilə təmizlənməsi də ən azı iyirmi ildən qədər uzun çəkə bilər. Əlimizdə minalanmış ərazilərin xəritəsi olmadığı üçün proses xeyli zaman alacaq. Bu işdə vətəndaşların öhdəliyi rəsmi qurumların tövsiyə və göstərişlərinə əməl etmək və həyatlarını erməni təxribatına qurban verməmək üçün qaydalara riayət etməlidir".

**Şəymən**

# "Moskvanın bu prosesdə iki marağı var"



## Asif Nərimanlı: "Rusiya Cənubi Qafqazın siyasi arxitekturasını Türkiyə ilə birgə qurmaq istəyir"

**Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinq zamanı Rusiyanın Ermənistan və Türkiyə arasındakı əlaqələrin normallaşmasına münasibətindən danışıb. O bildirib ki, Rusiya Ermənistan və Türkiyə arasında yanvarın 14-də Rusiya Federasiyasının vasitəçiliyi ilə Moskvada başlanmış münasibətlərin normallaşması prosesini daim dəstəkləyir:**

"Bundan əvvəl Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bəyan etmişdi ki, Rusiya ilkin olaraq İrəvanla Ankara arasında münasibətlərin normallaşdırılması prosesinə cəlb olunub, bundan xəbərdardır və ikitərəfli münasibətlərin nizamlanmasına töhfə verir.

Biz bundan sonra da Ermənistan-Türkiyə dialoquna hər cür kömək etməyə hazırıq. Güman edirik ki, bu, regionun maraqlarına, sabitliyinə və iqtisadi rifahına uyğundur".

**M.Zaxarovanın açıqlamasını "Şərq"ə şərh edən siyasi şərhçi Asif Nərimanlı bildirib ki, Rusiya Ermənistan-Türkiyə münasibətlərinin onun vasitəçiliyi ilə normallaşmasında maraqlıdır:** "Paşinyanın Putinlə danışdıqdan sonra Ərdoğanla telefon söhbəti aparması da deməyə əsas verir ki, bu təmasın qurulmasında Moskva iştirakçı olub. Ermənistan mediası Paşinyanın Putindən icazə aldığını da iddia edirdi. Moskvanın bu prosesdə iki marağı var.

Birinci maraq Cənubi Qafqazın siyasi arxitekturasını Türkiyə ilə birlikdə qurmaq və Qərbin bölgəyə girişinin qarşısını almaqdan ibarətdir. Bunun üçün "3+3 formatı" təklif olunur. Lavrovun Ankaraya sonuncu səfərindən sonra bu istiqamətdə prosesin sürətlənməsi aktuallaşdı. Bu perspektiv fonunda Rusiya Ankara-İrəvan münasibətlərinin onun da iştirakı ilə normallaşmasını istəyir.

İkincisi, Türkiyə və Ermənistan arasında son razılaşmadır. Bu razılaşmaya görə, üçüncü ölkələrin vətəndaşları Türkiyə və Ermənistan ərazisindən sərbəst istifadə edə biləcək.

Bu üçüncü ölkə, fikrimcə, Rusiyadır. Qərb sanksiyaları Rusiyanın hərəkət trayektoriyasını daraldır. Bu baxımdan Moskva Ermənistan ərazisi ilə Türkiyəyə çıxış əldə etməkdə maraqlıdır. Bu anlaşmada Rusiyanın da dolayısı iştirakının olduğu istisna deyil. Ərdoğanın Paşinyandan sonra Putinlə əlaqə saxlaması da bundan qaynaqlanır".

**Çimnaz**

# Kondisionerlər sərinliklə yanaşı xəstəlik də gətirir



## Vaqif Qarayev: "Bu avadanlıqdan xəstəliyə tutulmanın tibbi dildə adı kondisioner pnevmoniyasıdır"

**Artıq havalar kəskin istiləşir. Temperaturun 43 dərəcəyə qədər yüksələcəyi gözlənilir. Hər kəs qızmar havadan can qurtarmaq məqsədilə sərinləməyə otaq, su, kölgəlik axtarır. Bunun üçün də ən gözəl metod, xilaskar kondisionerdir.**

İstiləri onsuz təsəvvür etmək əlbəttə ki, çətindir. Lakin qısamüddətli sərinlik versə də, fəsadları da böyükdür. İnsan sağlamlığına, xüsusilə də uşaqların səhhətinə ziyan vurur. Orqanizmin zəifləməsinə, xəstəliyə gətirib çıxarır. Bir sözlə, kondisioner yayın verdiyi gözəlliyi insanın "burnundan gətirir".

**Mövzu ilə bağlı "Şərq"ə danışan pediatr Vaqif Qarayev bildirib ki, bu avadanlıqdan xəstəliyə tutulmanın tibbi dildə adı kondisioner pnevmoniyasıdır:** "Xüsusi bir yoluxdurucu mikrobdur. Ağır pnevmoniya hesab olunur. Müalicəsi çox çətinliklə aparılır. Əlamətləri qızdırma, üşütmə, əzginlik, öskürək, ən təhlükəlisi isə təngnəfəslikdir. Anlayıram, hava çox istidir, bürküdür, hər kəs sərinlik axtarışındadır. Amma kondisionerin də zərərləri var. Normal otaq temperaturu 22-24 dərəcədir. Uşaqlara kondisioner pərinin "soyuq üfürdüyü hissə"sinin qarşısında dayanmaq olmaz. Bu da uşaq orqanizminə ziyan vurur. İnsan havadan, küçədən gəlirsə, kondisioneri söndürmək lazımdır. Otağa daxil olan kimi temperatur fərqi azyaşlılara pis təsir edir. İnsanlar yayda da soyuqdan qorxur. Uşaqlara yayın qızmarında qalın, isti paltarlar geyindirirlər.

Dəri nəfəs almalıdır. Sintetik geyimlərdən istifadə etmək məsləhət deyil. Sintetika uşaq tərləyəndə bədənə sürtülür, dəridə müxtəlif problemlər yaradır.

Pambıq, çit materiallı paltarlar geyindirmək lazımdır. Valideynlər uşaqlarını 2-3 saatdan bir yuyundurmalıdır. Körpələr suda özünü çox xoşbəxt hiss edir. 6 ayına qədər uşaqlara maye məsləhət görülmür. Çünki suya olan tələbatı ana südündən alırlar.

6 aydan sonra su ehtiyacı ödənilməlidir. Mağazalarda satılan şirin, rəngli, qazlı mayelərdən birdəfəlik qaçmaq lazımdır. Hər yeməyin, hər içkinin öz mövsümü var.

Məsələn, payızda kompot, şirə içilməsini tövsiyə etməmək doğru olmaz. Çünki vitamin tələbatı yerinə yetirilməlidir. Vaxtaşırı kondisionerin daxilindəki "setka"sını təmizləmək vacibdir. Oraya toztorpaq, çirkab yığılır. Onlar da birbaşa uşağın tənəffüs yollarına gedir".

**Sücayət Mehti**



## Bölgələrə daha yaxın!

"Azercell Telekom" MMC ölkənin müxtəlif regionlarına səfərləri çərçivəsində yeni məhsullarını təqdim edir!

**"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" sloqanı ilə strateji məqsədinə sadiq qalan Azercell bu dəfə də bölgələrdə yaşayan abunəçilərini sevindirir.**

Lider mobil operator iyul ayının 12-dən başlayaraq "Bölgələrə daha yaxın" şüarı altındaölkəmizin müxtəlif regionlarına səfərlər təşkil edərək yerli əhaliyə öz yeni məhsul və innovativ xidmətlərini təqdim edir.

Həmçinin bu silsilə tədbirlər zamanı Azercell müxtəlif oyunlar keçirir, abunəçilərini həm yeni təkliflərlə tanış edir, həm də onlara maraqlı hədiyyələr qazandırır. Qeyd edək ki, kampaniya çərçivəsində ilk tədbirlər Xaçmaz və Qusarda baş tutub.

Azercell hər zaman olduğu kimi bütün abunəçilərini diqqət mərkəzində saxlayaraq onlara bərabər imkanlar təqdim etməyə çalışır. Kampaniyanın davam etdiyi müddət ərzində izləyicilər şirkətin rəsmi Instagram səhifəsində keçirilən müsabiqədə iştirak edərək hədiyyə internet paketi qazana bilərlər. Odur ki, Azercell-i doğma bölgənizdə gözləyin və onlayn tədbirlərdən də yararlanın!

# Yüksək markalı benzin tələb edən avtomobillərə maraq azalacaq

## Vətəndaşlar bahalaşmadan sonra daha çox dizel və hibrid avtomobillərə üstünlük verəcək



**Avtomobil bazarında da qiymət dəyişiklikləri müşahidə olunub. İqtisadi və Sosial İnkişaf Mərkəzinin (CESD) araşdırmalarına görə, mərkəz tərəfindən aparılan monitorinqə əsasən, 20 min manatadək olan avtomobillərin qiyməti 4 faiz yüksəlib.**

Aİ-95 markalı benzindən istifadə edən və daha bahalı avtomobillərə tələbin azalması müşahidə olunub. Həmin növ avtomobillərin qiymətində dəyişiklik qeydə alınmayıb.

Aİ-95 markalı benzinin qiymətinin bahalaşmasının avtomobil bazarına təsirini şərh edən ekspertlər də CESD-in məlumatını təsdiqləyib.

Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycana idxal olunan yeni avtomobillərin böyük əksəriyyəti Aİ-95 markalı benzinlə işləyir: "İkinci əl avtomobil bazarında isə Aİ-92 markalı benzinlə çalışan avtomobillər üstünlük təşkil edir. Aİ-95 markalı benzinin qiymətinin yüksəlməsi Azərbaycanın avtomobil bazarında qiymətlərin kəskin artımı və ya azalmasına gətirib çıxarmayacaq. İkinci əl avtomobil bazarında Aİ-95 markalı benzinlə işləyən avtomobil vasitələrinə tələbat azalsa da, qiymətlərdə kəskin dəyişmə olmayacaq".

E.Cəfərov deyib ki, yüksək oktanlı benzinin qiymətinin artması dizel və hibrid avtomobillərə marağı artıracaq. Eyni zamanda kiçik mühərrikli avtomobillərə də tələb artacaq: "Dediyim kimi, benzinin qiyməti artdıqca dizel mühərrikli avtomobillərə maraq artır. Bu, o qədər də xoşagələn hal deyil. Çünki bu tip mühərrikə malik nəqliyyat vasitələri atmosferə daha çox $CO_2$ qazı buraxır və havanı daha çox çirkləndirir". Ekspert xüsusi olaraq qeyd edib ki, Aİ-95 markalı benzin yalnız bahalı avtomobillərdə istifadə olunmur. Bu gün dünyada istehsal olunan bütün komfortlu və təhlükəsiz, müasir tələblərə cavab verən avtomobillərin hamısı Aİ-95 markalı benzinlə çalışır və bu cür avtomobillər bizim ölkəmizə də idxal olunur".

Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov da hesab edir ki, çox yanacaq işlədən və daha yüksək markalı benzin tələb edən avtomobillərə marağın azalacağı gözlənilir. Ekspert deyib ki, hibrid və elektromobillərin baha, köhnə avtomobillərin isə ekoloji problemləri olduğundan, benzinin qalxması bahalı və yeni avtomobillərin dövriyyəsinə təsir edəcək: "Aİ-95 və Aİ-98 markalı benzinin qiymətinin qalxmasının ikinci əl avtomobillərin satışına mənfi təsiri gözlənilmir. Çünki avtomobil almaq istəyən şəxs "Premium" markalı benzinin baha olması səbəbilə ya Aİ-92 benzinlə işləyən, ya dizellə və ya sıxılmış qazla işləyən, ya da hibrid mühərrikli avtomobillərə və elektromobillərə üz tutacaq. Amma müasir hibrid avtomobillər də Aİ-95 markalı benzin işlədirlər. Hər halda daha çox yanacaq işlədən və daha yüksək markalı benzin tələb edən, avtomobillərə marağın azalacağı gözlənilir.

İnsanlar yeni avtomobil alsalar, benzinə çox pul xərcləməli olacaqlar. Benzin problemi olmayan hibrid və elektromobillərin isə özləri bahadır. Köhnə avtomobillərin isə ekoloji problemləri var. Hər halda benzinin qalxması bahalı və yeni avtomobillərin dövriyyəsinə təsir edəcək".

Ə.Hüseynovun sözlərinə görə, bəzi avtomobillərin qiymətində də dəyişikliyin ola bilməsi istisna deyil: "Bu məsələnin xaricdən Azərbaycana sıfır kilometrajla idxal olunan avtomobillərin qiymətinə təsir edəcəyi gözlənilmir. Amma artıq Azərbaycanda istifadədə olan ikinci əl avtomobillərin qiymətinə az da olsa təsir edə bilər. Yəni o avtomobillərə maraq azalar. Maraq azalanda isə qiymətlər cüzi də olsa azala bilər. Belə ki, hazırda ikinci əl olan və "Premium" markalı benzin işlədən avtomobillərin qiyməti ucuzlaşa bilər. Amma Aİ-92 markalı benzin və ya dizellə çalışan avtomobillərin qiymətində dəyişiklik gözlənilən deyil. Olsa da, bəlkə qısamüddətli və cüzi artım ola bilər".

**Şəymən**

## İnsanlar səhv düşünür

Evdə bişmiş şirniyyatlar adamı tez qocaldır



**İnsanı qocaldan qidalardan biri də evdə hazırlanan və faydalı olduğunu düşündüyümüz un məmulatları, şirniyyatlar, bişmələrdir.**

Bakupost.az xəbər verir ki, insan orqanizmi pik inkişaf həddinə 28 yaşda çatır, 30 yaşdan artıq qocalma prosesləri tədricən başlayır.

Terapevt Yelena Tixomorova bildirib ki, kollagen sintezinin azalması ilə dəri və praktiki olaraq bütün orqanların ketfiyyəti düşür.

"Zamanla qocalmanı bir qədər ləngitmək üçün bir sıra qidalardan uzaq durmaq lazımdır.

Bəzən insanlar elə düşünür ki, marketdən hazır şirniyyat, un məmulatı almayıb, evdə bişirsəm, o daha az zərərlidir.

Amma istər ev, istər alınma, şəkər və un sadə karbohidratlardır. Onlar qocalmanı artırır. Buna səbəb orqanizmdə "şəkər yüksəlmələrinin" olmasıdır.

Qanda şəkər qəfil qalxanda, birləşdirici toxumanın dağılması sürətlənir. Ona görə müntəzəm olaraq mürəbbə, konfet, şirniyyat, şirin yoqurt, hətta şirin içkilər qəbul edən insan qocalma prosesini daha da sürətləndirmiş olur. Eləcə də qocalmanın tempini artıran bədənin daim ödemli, şişkin halda olmasıdır, buna da duz və duzlu qidalar, çox duz qatılmış yeməklər səbəb olur".


**Elan**

Xətai rayonundakı 27 saylı tam orta məktəb tərəfindən Mustafayev Firudin Səyavuş oğluna verilmiş E 360567 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi tərəfindən Şirinov Şeyda Sahib oğlunun adına verilmiş AD № 0049667 hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.


## "Hakim ortada qalıb"

Nərmin Quliyevanın qətl işi yenə yarımçıq qalıb



*Adəm Məmmədov: "Qəbul edilən qərar ölkədə məhkəmə sisteminin hansı vəziyyətdə olduğunu nümayiş etdirəcək"*

**Tovuzun Dondar Quşçu kəndində 10 yaşlı Nərmin Quliyevanı qətlə yetirməkdə ittiham olunan İlkin Süleymanovun cinayət işi üzrə keçirilməli olan məhkəmə prosesi təxirə salınıb.**

APA-nın xəbərinə görə, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi Dadaş İmanovun sədrliyi ilə araşdırılan cinayət işi ilə bağlı baxış iclasının təxirə salınmasına səbəb işə baxan hakim heyətindən birinin əmək məzuniyyətində olması olub. Proses qeyri-müəyyən müddətə qədər təxirə salınıb.

Maraqlıdır, 3 ilə yaxındır davam edən məhkəmə prosesi niyə hələ də öz həllini tapmır ?

**Sualımızı cavablandıran hüquqşünas Adəm Məmmədov "Şərq"ə açıqlamasında bildirib ki, hakim artıq işin sübuta yetmədiyini başa düşüb:** "Bu gün Azərbaycanın ədalət mühakiməsi imtahan qarşısındadır. Yəni qəbul edilən qərar ölkədə məhkəmə sisteminin hansı vəziyyətdə olduğunu nümayiş etdirəcək. Bu məsələ aktual, cəmiyyət və media nümayəndələrinin diqqət mərkəzində olan bir prosesdir. Burada həm də prokurorluğun basqısı və diqqəti var. Çünki sual ortaya çıxır ki, şəxs təqsirsizdirsə, onu niyə məhkəməyə veriblər? Adətən belə mürəkkəb işlərdə hakim hökm çıxara bilmir. Çünki bu, "yuxarı baxsa bığ, aşağı baxsa, saqqal" söhbətidir. Hakim ortada qalıb. Nə özündə cəsarət toplayıb qərar qəbul edə bilir, nə də geri addım ata bilir. Ona görə də hələ ki düşünürlər.

Bu işi yaxından izləyirik, mətbuatda görürük, hətta mənə də bu işlə bağlı təklif olunub ki, müdafiə edim. Mən də bu işə qoşula bilərəm".

Xatırladaq ki, 2019-cu il noyabrın 19-dan itkin düşən Tovuz rayonunun Dondar Quşçu kənd sakini, 10 yaşlı Nərmin Quliyevanın qətlə yetirilərək yandırılan meyiti 2020-ci il yanvarın 6-da kənd ərazisində aşkar edilib. Cinayəti törətməkdə şübhəli bilinən Dondar Quşçu kənd sakini, 1973-cü il təvəllüdlü Süleymanov İlkin İbrahim oğlu tutularaq istintaqa cəlb edilib.

**Çimnaz Şahlar**

# İsti havalarda yağlı yeməklərdən qaçın!

## Bu, mədə pozuntusu, qarın ağrısı, ishal yarada bilər



**Havaların isti keçdiyi günlərdə qida zəhərlənmələrin artması gözlənilməndir. Mütəxəssislər yay fəslində əhaliyə qidalanmada xüsusilə diqqətli olmağı tövsiyə edir. İsti havada ərzaqların tez xarab olması, birbaşa günəş şüalarının altında saxlanılan qidaların tərkibində baş verən dəyişikliklər zəhərlənməyə əsas yaradır. Kütləvi mərasimlər isə bu mənada bir qədər də təhlükəlidir.**

Qidaların, yeməklərin böyük həcmdə hazırlanması, axşam bişirilmiş yeməyin günorta yeyilməsi zəhərlənmə üçün şərait yaradır. Belə hadisələrdən biri Göyçay rayonunda baş verib. Rayonda qidadan kütləvi zəhərlənmə qeydə alınıb. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Hacıağabəyli kənd sakini Azər Quliyevin anasının yas mərasimində olub. Axşam saat 20:00 radələrində məclis iştirakçılarından, aralarında rayonun Yeniarx kənd sakinləri və azyaşlıların da olduğu təxminən 15-ə yaxın şəxsin halı qəfildən pisləşib. İshal və qusma əlamətləri olan bu insanlar təcili olaraq Göyçay Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb. Xəstəxanada müayinə və müalicə tədbirləri görülüb. Vəziyyətləri yaxşılaşıb. Zəhərlənməyə nəyin səbəb olduğu hələ ki, dəqiq bilinmir. Faktla bağlı Göyçay Rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

**Təcili tibbi yardım stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov "Şərq"ə açıqlamasında yay aylarında zəhərlənmə hallarına tez-tez rast gəlindiyini qeyd etdi:**

- Yay aylarında qida təhlükəsizliyi ən önəmli məsələdir. Havanın temperaturu yüksək olduğundan istənilən qida məhsulu, ərzaq qısa zamanda tez xarab ola bilər. Adicə su marketə gətirilir və onun içəri daşınması 10-12 dəqiqədən çox çəkirsə, bu müddət ərzində suyun da keyfiyyəti dəyişə bilər. Yay fəslində qidalar, ərzaq məhsulları açıq havada, günəş şüaları altında saxlanmamalıdır. Mayonez, ət, toyuq, balıq, kremli, yağlı qidalar tez xarab olan məhsullara aiddir. İsti havanın, günəş şüalarının təsiri ilə qidaların tərkibində qida toksinləri yaranır, nəticədə orqanizmdə zəhərlənmələrə gətirib çıxarır. Buna qida toksiki infeksiyaları deyilir. Və onlar strafilakok mənşəli bakteriyalardır. Bu bakteriyalara balıqlarda, hisə verilmiş balıqda daha çox rast gəlinir. Ona görə də yay aylarında balıq məhsullarından daha ehtiyatla edərkən çox diqqətli olmaq lazımdır.

Ş.Məmmədov kütləvi mərasimlərdə yeməklərin hazırlanma qaydasına ciddi diqqət edilməli olduğunu söylədi:

- Toylarda da zəhərlənmə faktları olur, yas mərasimlərində də. Birincisi, gərək yeməklər düzgün qaydada hazırlansın. Ən əsası da ərzaq məhsullarının düzgün saxlanma şəraitinə diqqət edilsin. Soyuducuda qalmalı olan yeməklər soyuducuda saxlansın, ərzaqlar, xörəklər uzun müddət açıq havada qalmasın. İkincisi, mərasimlərdə iştirak edənlər də ehtiyatlı olmalı, qidalanma qaydalarına riayət etməlidir. İsti havada yağlı yeməklər mədə pozuntusu, qarın ağrısı, ishal yarada bilər. Yağlı yeməkdən sonra soyuq su içmək də ishala səbəb olur. Uşaqlara qarşı xüsusilə diqqətli olmaq lazımdır. Biz hər zaman məsləhət görürük ki, isti havalarda yüngül qidalara üstünlük verilməlidir. Məlumdur ki, toy məclislərində çeşidli yeməklər, yas mərasimlərində isə əsasən yağlı, ət xörəkləri verilir. Hər ikisi də isti havalarda təhlükəlidir.

**Məlahət Rzayeva**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1954



## “Kəpənəkləri sayın!"

### İngiltərədə xalqa çağırış edilib

**İngiltərə ictimaiyyəti növbəti 3 həftə ərzində nəsli kəsilməkdə olan kəpənəklərin siyahıya alınmasına dəvət olunub.**

Böyük Britaniyanın xeyriyyə təşkilatı ölkədəki kəpənəklərin beşdə ikisinin təhlükə altında olduğunu açıqlayıb.

”TRT Haber”in məlumatına görə, təşkilat insanlardan 15 dəqiqə çöldə vaxt keçirərək kəpənək və güvələri saymağı xahiş edib.

Siyahıyaalma nəticəsində əldə ediləcək məlumatlar iqlim dəyişikliyi və çirklənmənin təsirini qiymətləndirmək üçün istifadə olunacaq. Keçən il ölkə üzrə insanlar 150,000 siyahıyaalma nəticələrini bildirdilər ki, bu da proqram üçün son 13 ildə ən aşağı göstərici olub.

**Turan**

## 74 saniyə uçuş…

### Bloger dünyanın ən qısa reysini reallaşdırıb



**Səyahət blogeri 74 saniyə davam edən dünyanın ən qısa uçuşunun sərnişini olub və təəssüratlarını videoya çəkib.**

Milli.Az Daily Mail-ə istinadən bildirir ki, o, abunəçiləri təəccübləndirən videonu internetdə paylaşıb.

Britaniyalı Noel Filips Orkney arxipelaqındakı Papa Vestrey və Vestrey Şotlandiya adaları arasında müntəzəm uçuşdan danışıb. Uçuşun ”Loganair” aviaşirkəti tərəfindən həyata keçirildiyi, təyinat məntəqəsinə qədər məsafənin 2,7 kilometr olduğu bildirilir.

Sərnişinin sözlərinə görə, bir tərəfli uçuş ona 17 funtsterlinqə başa gəlib, ona görə də biletin qiyməti ilə qət edilən kilometrlərin nisbəti bu uçuşu dünyanın ən bahalı uçuşlarından birinə çevirir.

”Bu, Emirates biznes sinifində uçmaqdan daha bahadır”, - dedi Filips. Belə ki, belə bir hesablama olduğu halda Londondan Dubaya bilet 34 min funt-sterlinqə başa gələcək. Bildirilir ki, göyərtədə səkkiz nəfər yerləşə bilər, aviaşirkət gündə iki dəfə uçuş həyata keçirir.

Filipsin YouTube kanalındakı posta təxminən 130.000 baxış və 600-dən çox şərh var. Abunəçilər faydalı məzmuna görə blogerə minnətdarlıqlarını bildirdilər və onun təqdimatına heyran qaldılar.



# Fədakarlıq…

## Nazir xəstə ərinə görə istefa verdi

**Belçikanın xarici işlər naziri və baş nazirin müavini, 47 yaşlı Sofi Vilmes vəzifəsindən istefa verib. Səbəb isə ailə dəyərlərinə önəm verənlər üçün nümunəvidir.**

Bu barədə BBC (Türkçə) məlumat verib. Sofi Vilmesin bu addımı həyat yoldaşı Kristofer Ston üçün atdığı bildirilir. Xanım nazirin həyat yoldaşında beyin xərçəngi aşkarlanıb və o, hazırda müalicə kursu keçən həyat yoldaşının yanında olmaq, ona mənəvi dəstək vermək üçün vəzifəsindən istefa verərək dövlət işindən kənarlaşıb. S.Vilmes Belçikanın ilk qadın naziridir. ”Vəzifəm, dövlət işləri həyat yoldaşımın yanında olmağa, daim onunla maraqlanmağa imkan vermir. Həyat yoldaşımın xəstəliklə mübarizəsi çox ağır bir savaşı xatırladır. Bu savaşda ona və övladlarımıza dəstək olmaq istəyirəm, lakin hökumətdəki mövcud vəzifəm buna imkan vermir. Ona görə də istefa vermək qərarına gəldim” söyləyən Sofi hökumət üzvlərinin bunu anlayışla qarşılayacaqlarına inandığını deyib. Belçika Baş naziri Aleksandr De Croo hökumətin güclü bir xarici işlər nazirini itirməyin üzüntüsünü yaşadığını bildirsə də, sabiq nazirin seçimini heyranlıqla qarşıladığını söyləyib və Sofi Vilmesə müraciətlə : ”Kristoferlə birgə

***O, hazırda müalicə kursu keçən həyat yoldaşının yanında olmaq istəyir***



verdiyiniz mücadilədə yanınızdayıq” deyib. Vilmesin həyat yoldaşı avstriyalı sahibkardır və onların 4 övladı var. Sofi Vilmesin əvəzinə isə vəzifəyə əlcəzairli, 52 yaşlı jurnalist Hadya Lahbib təyin edilib. Hadya Lahbib Əlcəzairdən Belçikaya köç etmiş ailənin övladıdır. 1970-ci ildə Belçikada dünyaya gəlib. Brüssel Özgür Universitetini qəzetçilik ixtisası üzrə bitirib və uzun illər dövlət televiziyası RTBF-də aparıcılıq edib. Əfqanıstan və Orta Şərqdə Belçika dövlətinin özəl elçisi olub.

**Məlahət**



## Qadının 53 il əvvəl göldə itirdiyi üzük tapılıb



**Kaliforniya gölündə çimərkən üzüyünü itirən alabamalı qadının zinət əşyası 53 ildən sonra göldə balıq tutan cütlük tərəfindən tapılıb.**

**Azərtac United Press agentliyinə istinadla xəbər verir ki, Dana Skott Laflin 1969-cu ildə orta məktəbi bitirdikdən sonra Berriess gölündə üzərkən üzüyü suya düşüb. Onun oğlu bir neçə gün əvvəl həmin göldə balıq tutarkən üzüyü tapan və sahibini müəyyənləşdirməyə çalışan cütlükdən mesaj alıb.**

**Qadın fotoşəkillərə baxaraq adının baş hərflərinin və oxuduğu məktəbin adının həkk edildiyi üzüyün ona məxsus olduğunu təsdiqləyib. Tapılmış üzük poçtla sahibinə göndərilib.**

## Bakıya gəlməyə hazırlaşan İrem xəstəxanalıq oldu



**Sıx konsert proqramına görə tez-tez səyahət edən müğənni İrem Derici xəstəxanalıq olub.**

**Axşam.az xəbər verir ki, ötən gün Bodrumda səhnəyə çıxan ifaçının tədbirdən sonra halı pisləşib.**

**İrem şəkillərini sosial şəbəkədə paylaşaraq ”Necə başladı, necə bitdi” sözlərini yazıb. Bir müddətdir infeksiyadan müalicə alan Derici konsertlərə görə müalicəsini təxirə saldığını bildirib.**

***Qeyd edək ki, Derici bir neçə gün sonra Bakıda da konsert verəcək.***

## Xəyanətin cəzasına hamı heyrətləndi

### Arvadının çiyninə çıxaraq, onu kənddə gəzdirməyə məcbur edib



**Hindistanda qəribə hadisə baş verib.**

**Metbuat.az xəbər verir ki, ər, arvadının çiyninə çıxaraq, onu kənddə gəzdirməyə məcbur edib.**

**Hadisənin görüntülərinin sosial mediada yayılmasından sonra polis 9 nəfəri nəzarətə götürüb. Ərin iddiasına görə, arvadı ona xəyanət etdiyi üçün qadını belə cəzalandırıb. Kənd sakinləri isə kişinin davranışına mane olmayıb.**



# Elektroskuter təhlükəsi

## 23 yaşlı tibb bacısı ölümdən döndü

**Türkiyənin Adana şəhərində elektroskuterlə hərəkət edən gənc tibb bacısı ağır xəsarət alıb. ”Şərq” ”Milliyet.com.tr”yə istinadən bildirir ki, kiçik həcmli yük avtomobili tibb bacısının skuteri ilə toqquşub.**

23 yaşlı Xədicə Şenər qəza nəticəsində ağır yaralanıb. Gənc qızın əlləri, ayaqları ciddi xəsarət alıb. Ahmet Rəmzi Yüreğir küçəsində baş vermiş qəza saniyə-saniyə müşahidə kameraları tərəfindən qeydə alınıb. Yük avtomobilnin skuterlə toqquşması nəticəsində gənc qız yerə yıxılıb, avtomobilin sürücüsü isə hadisə yerindən qaçıb. Ətrafdakıların məlumat verməsi sayəsində hadisə yerinə təcili yardım gəlib və tibb bacısı xəstəxanaya aparılıb. Sürücü isə sonradan polisə gedərək təslim olub, lakin ifadəsi alınaraq sərbəst buraxılıb. Kamera incələmələri nəticəsində məlum olub ki, yük avtomobili yolun hərəkət zolağının qarşı istiqamətinə çıxıb və sürətlə gələrək yoldakı skuterə çarpıb. Xədicə Şenərin atası Mehmet Akif Şenər isə deyib ki, qızının səhhətində hələ də problem-



lər var və həyati təhlükəsi aradan qalxmayıb. Ata qızına çarparaq qaçan sürücünün həbs edilməsini tələb edir: ”Qızımın bədənində bir çox yara və sınıqlar var. Hazırda övladım yataq xəstəsidir. Reanimasiya şöbəsində işləyir. Hər dəfə növbədən evə gələndə, ”ata, bu gün bir insanın həyatını xilas etdik” deyirdi. Həyatını başqalarının həyatını xilas etməyə həsr edən belə gənclərimiz məsuliyyətsiz sürücülərin qurbanı olmamalıdır”.

**Məlahət**

## "Kobra" relsdən çıxdı

### Qəzadan sonra əyləncə parkı bağlanıb

**Danimarkada yerləşən ”Tivoli Friheden” adlı əyləncə parkında ”Kobra” atraksionu relsdən çıxıb.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, faciəvi hadisə nəticəsində 14 yaşlı qız həyatını itirib, 13 yaşlı oğlan isə yaralanıb. Qəzadan sonra əyləncə parkı bağlanıb. Polis hadisə ilə bağlı araşdırma başladıb.




Əyləncə parkının saytında yer alan məlumata görə, uzunluğu 400 metr olan ”Kobra” adlı qatar saatda 70 kilometr sürətlə hərəkət edir. Həmçinin sözügedən əyləncə parkında 2008-ci ildə buna bənzər qəza baş verib və 4 nəfər yaralanıb.

**Çimnaz Şahlar**

## Bir salxım üzüm 10 min dollara satılıb

### Cəmi 27 üzüm dənəsindən ibarət salxım otelin qonaqları üçün xüsusi bir ziyafət olacaq



**Cümə günü İsikava prefekturasında keçirilən hərracın iştirakçısı nadir ”Roma yaqutu” növündən olan üzümün bir salxımına 1,5 milyon yen (10,7 min dollar) ödəyib.**

Azərtac xəbər verir ki, NHK telekanalının yaydığı məlumata görə, bahalı üzümü yerli otellər şəbəkəsinin nümayəndəsi alıb. Onun sözlərinə görə, cəmi 27 üzüm dənəsindən ibarət salxım otelin qonaqları üçün xüsusi bir ziyafət olacaq.

”Roma yaqutu” yapon seleksiyaçılar tərəfindən 2008-ci ildə yetişdirilib. Standartlara uyğun olaraq elit üzüm meyvəsində şəkərin miqdarı 18 faizdən az olmur. Buna görə də ”Roma yaqutu” şirniyyat həvəskarları arasında xüsusi populyarlıq qazanıb. Yaponiyada bir sıra meyvə və giləmeyvə növləri yüksək qiymətləndirilir. Onların qiyməti bir neçə min, hətta bəzən on minlərlə dolları ötə bilir. Məsələn, 2019-cu ildə ”yubari” sortundan olan zərif ətirli bir cüt qovun 45 min dollara satılmışdı.

## İsveçrə fermerləri pomidorların "dilini" öyrənirlər

### Müəyyənləşib ki, insan kimi bitki də stress keçirir



**İsveçrəli fermerlər kənd təsərrüfatında bitkilərə qulluq üçün yeni metodu uğurla sınaqdan keçiriblər.**

Azərtac xəbər verir ki, İsveçrənin Fransa ilə həmsərhəd Vaadt kantonunda yaşayan Jülyen Ştoll adlı fermer öz təsərrüfatında yetişdirdiyi pomidorların ”dilini tapıb”. O, bitkilərin su və ya gübrəyə ehtiyacı olduğunu, zərərverici və ya göbələk xəstəliklərindən əziyyət çəkdiyini xüsusi aparat vasitəsilə müəyyən edə bilir. İsveçrə Teleradiosunun (SRF) məlumatına görə, fermer sınaqdan keçirdiyi bitkilərin kötüyünə incə elektrodlu kabellər bağlayaraq onların ”stres səviyyəsi”ni ölçür. Fermer bildirib ki, onun metodu insan üzərində elektrokardioqramma müayinəsi ilə oxşarlıq təşkil edir. İnsanın döş qəfəsi və qolundakı elektrodların ötürdüyü siqnalların arasındakı diferensialın hesablanması prinsipinə oxşar şəkildə bitkilərin kökünə sancılmış incə elektrodlar bitkinin gövdəsi ilə kökünə ötürülən elektrik siqnallarını ölçür və bu siqnalların tezliyi bitkinin ehtiyacları barədə məlumat verir.

Bu sistemi ilk dəfə təqdim edən ”Vivent” şirkətinin təmsilçisi Morits Qreff bildirib ki, elektrodların ötürdüyü siqnallar qövsvari hərəkət edirsə bu, bitkinin stress keçirdiyini göstərir. Kiçik və müntəzəm qövslər bitkinin zərərvericilərdən əziyyət çəkdiyini, bitkinin gecə-gündüz ritminin pozulması həşərat və ya göbələk probleminin olduğuna dəlalət edir.

Hazırda aparatın ötürdüyü məlumatlar süni intellektin köməyi ilə analiz edilir və bitkilərə qulluqla bağlı qərarlar verilir. Gələcəkdə sistemin inkişaf etdirilməsi sayəsində aparat müstəqil şəkildə bu qərarları qəbul edəcək və misal üçün suvarma sistemini avtomatik şəkildə işə salacaq.

Mütəxəssislərin fikrincə, pomidor kimi həssas bitki üzərində aparılan bu tədqiqat və hazırlanan metod digər bitkilərə də tətbiq oluna bilər. Elektrofiziologiya metodu ilə bitkilərin məhsuldarlığını artırmaq və onlara qulluğu asanlaşdırmaq mümkün ola bilər.